QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 210 (5441) 17 **noyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# "Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək"

*Prezident İlham Əliyev Abşeron rayonuna səfər edib*



Səh → 2

**Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir**



→ 5

**Bakıda akademik Rəfiqə Əliyevanın 85 illik yubileyinə həsr olunan beynəlxalq elmi konfrans işə başlayıb**



→ 6

**Siyavuş Novruzov: "YAP-ın üzvləri müstəqil Azərbaycanın inkişafında aktiv iştirak edirlər"**



→ 6

**Milli dirçəlişdən milli tərəqqiyə doğru**




→ 7

**Vüqar Rəhimzadə: "YAP dövlətə xidmət nümunəsini ortaya qoydu"**



→ 8

**Hikmət Babaoğlu: "Reket" jurnalistikasına qarşı bir neçə mübarizə metodları var"**



→ 9

→ 8

**"Reket jurnalistikası ilə mübarizə lazımdır, vacibdir və zəruridir!"**



→ 11

**"Dağlıq Qarabağ münaqişəsinin həlli Rusiya üçün prioritetdir"**



→ 9

**"Amtimes": Sarkisyan mənasız səfərləri ilə dövlət büdcəsinə ziyan vurmaqdan başqa bir iş görmür**



# “Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək”

## *Prezident İlham Əliyev Abşeron rayonuna səfər edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron rayonuna gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə Xırdalan şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova Prezident İlham Əliyevə Heydər Əliyev parkında aparılan yenidənqurma tədbirləri, rayonda görülən abadlıq-quruculuq işləri və həyata keçirilən layihələr barədə ətraflı məlumat verdi.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron Olimpiya İdman Kompleksinin açılışında iştirak edib. Abşeron Olimpiya İdman Kompleksi Prezident İlham Əliyevin “Abşeron və Ağcabədi rayonlarında Olimpiya İdman komplekslərinin tikintisi ilə bağlı tədbirlər haqqında” 2011-ci il 27 may tarixli Sərəncamı əsasında inşa edilib.








Bu, ölkəmizdə sayca 42-ci Olimpiya İdman Kompleksidir. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi. Gənclər və idman naziri Azad Rəhimov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Bildirildi ki, kompleksdə inşaat işləri ən yüksək səviyyədə aparılıb və bu ilin oktyabrında başa çatdırılıb. Buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12,5 metrdir. İdmanın bu növünə də ölkəmizdə yeniyetmə və gənclərin marağı ilbəil artır. Bu zalda üzgüçülük yarışlarını 150 nəfər izləyə biləcək. Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Bu zalda 150 tamaşaçı yeri var. Güləşçilərin məşqlərinin yüksək səviyyədə keçirilməsi üçün ən xırda incəliklər belə nəzərə alınıb. Ağır atletika və trenajor salonunda idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Qeyd edildi ki, Abşeron Olimpiya İdman Kompleksinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev Abşeron rayon ictimaiyyətinin nümayəndələri və ölkəmizin tanınmış idmançıları ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış edib.

**Ardı Səh. 3**

# "Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək"

## *Prezident İlham Əliyev Abşeron rayonuna səfər edib*

Əvvəli Səh. 2



Prezident İlham Əliyev çıxışında qeyd edib ki, bu, bölgələrdə inşa edilmiş sayca 42-ci Olimpiya İdman Kompleksidir. Eyni zamanda bu idman obyekti Abşeron rayonu üçün çox böyük əhəmiyyət kəsb edir:

"Burada 1000 nəfərlik gözəl idman zalı, 1600 nəfərlik stadion, məşq zalları, boks, şahmat bölmələri, açıq idman meydançaları, kort var. Bir sözlə, burada idmanın əksər növləri ilə məşğul olmaq mümkündür. Bu, Abşeron rayonu üçün, idmançılar üçün gözəl bir hədiyyədir. Əminəm ki, həm rayon sakinləri, uşaqlar, yeniyetmələr, eyni zamanda, idmançılar da bu kompleksin imkanlarından istifadə edəcəklər. Beləliklə, bütün bölgələrdə müasir idman infrastrukturunun yaradılması istiqamətində növbəti önəmli addım atılır.

Bu kompleksin açılışında bizim Olimpiya, dünya çempionlarımız iştirak edirlər. Mən sizi xüsusilə salamlayıram. Əminəm ki, sizin gələcək fəaliyyətiniz də Azərbaycan idmanına xidmət edəcək. Bu gün Azərbaycan dünya miqyasında idman dövləti kimi tanınır. Bizim uğurlarımız indi bütün dünya idman ictimaiyyəti tərəfindən qəbul edilir. Bizim idmançılar Azərbaycanı bütün beynəlxalq yarışlarda ləyaqətlə təmsil edirlər, bir çox Olimpiya, dünya, Avropa çempionlarımız var. Bu il bizim iki idmançımız - burada iştirak edən Hacı Əliyev və Məhəmmədrəsul Məcidov üçqat dünya çempionu olublar. Bu, doğrudan da böyük idman nailiyyətidir. Yəni, onlar artıq üçüncü dəfə təsdiqlədilər ki, dünyada birincidirlər. Əlbəttə ki, bizim olimpiyaçılarımızın, üçqat dünya çempionlarımızın qələbələri uşaqları da idman bölmələrinə cəlb edir. Əminəm ki, uşaqlar, yeniyetmələr bu idman kompleksindəki bölmələrdə məşq edəcəklər və gələcəkdə sizin yerinizi tutacaqlar. Çünki idmanın dayanıqlı inkişafı gənc nəslin yetişməsindən başlayır. Gənc nəslin yetişdirilməsi, hazırlıq prosesinin düzgün qurulması üçün şərait olmalıdır. Eyni zamanda, onların qarşısında gözəl nümunələr olmalıdır. Onlar da sizin kimi Olimpiya, dünya çempionları olmaq istəyirlər. Beləliklə, bu gün Azərbaycanda idmanın kütləviliyi də təmin edilir. Biz əlbəttə ki, idmançılarımızın uğurları ilə fəxr edirik. Bu, ölkəmizin şöhrətini daha da yüksəklərə qaldırır. Ancaq bununla bərabər, bundan az əhəmiyyət daşımayan məsələ idmanın kütləviliyidir, vətəndaşlarımızın sağlamlığıdır. İdman insan sağlamlığı üçün bəlkə də əsas vasitədir."







Prezident İlham Əliyev bildirib ki, Abşeron rayonunda son illər ərzində böyük quruculuq, abadlıq işləri görülüb, infrastruktur layihələri icra edilir. Rayonda əsas infrastrukturla bağlı problemlər öz həllini tapıb:

"Rayonda 16 yaşayış məntəqəsini əhatə edən 7 yol layihəsi icra edilibdir, qazlaşdırma 100 faizdir, elektrik təchizatı ilə heç bir problem yoxdur. İçməli su problemi də tədricən həll olunur.

*Ardı səh. 4*

# “Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək”

## *Prezident İlham Əliyev Abşeron rayonuna səfər edib*









Əvvəli Səh. 3

Mənə verilən məlumata görə, Xırdalan şəhərinin su problemi həll olunubdur. Digər qəsəbələrdə də məsələ öz həllini tapacaq. İş yerləri yaradılır. Abşeron rayonunda 100-dən çox sənaye müəssisəsi fəaliyyət göstərir ki, o müəssisələrdə minlərlə insan işləyir. Sosial infrastruktur yaradılır, bu gözəl Olimpiya Kompleksi, 10-dan çox məktəb tikilib və təmir olunub. Bir sözlə, rayonun hərtərəfli inkişafı üçün çox böyük işlər görülür, yeni parklar, ictimai yerlər yaradılır, binalar təmir olunur. Növbəti sərəncamda təmirə ehtiyacı olan binaların da bərpası nəzərdə tutulur. Bir sözlə, Abşeron rayonu hərtərəfli inkişaf edir, gözəlləşir, abadlaşır. Növbəti illərdə rayonun sosial-iqtisadi inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək.

Biz 2017-ci ili bütövlükdə iqtisadi, sosial, beynəlxalq siyasət sahələrində yaxşı nəticələrlə, uğurlarla başa vururuq. Bir daha göstəririk ki, Azərbaycanda inkişaf dayanıqlıdır və uğurludur. Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək. Qarşıda duran vəzifələr hələ çoxdur. Biz bütün problemləri, insanları narahat edən məsələləri həll etməliyik. Həm Bakının, həm böyük şəhərlərin, ən xırda kəndin də problemi diqqət mərkəzində olmalıdır. Mən sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm və idmançılara yeni uğurlar arzulayıram. Rayon sakinlərinə isə yeni nailiyyətlər, cansağlığı, əmin-amanlıq diləyirəm. Əminəm ki, Abşeron rayonunda belə gözəl hadisələr çox olacaq.”

X X X

Sərbəst güləş üzrə üçqat dünya çempionu, Rio Olimpiadasının mükafatçısı Hacı Əliyev çıxış edərək bildirib ki, bu gün idmançılarımız dünya və Avropa çempionatlarında, beynəlxalq yarışlarda uğurlu nəticələr qazanır və Vətənimizi layiqincə təmsil edirlər. Azərbaycan dünyada artıq idman ölkəsi kimi tanınır. Ölkəmizdə keçirilən birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları da bir daha bunu sübut etdi ki, Azərbaycanda idmana və idmançılara yüksək diqqət və qayğı vardır, hər bir şərait yaradılmışdır.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron rayonunda “Zəhmət-Ruzi” MMC-nin fəaliyyəti ilə tanış olub.

Ardı Səh. 5

# "Növbəti illərdə Azərbaycan ancaq və ancaq yüksək sürətlə, böyük uğurlarla irəliyə gedəcək"

## *Prezident İlham Əliyev Abşeron rayonuna səfər edib*

Əvvəli Səh. 4

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Abşeron rayonu üzrə maliyyələşdirilmiş investisiya layihələri, o cümlədən müasir texnologiyalara əsaslanan investisiya layihələrinə ayrılan güzəştli kreditlər, istifadəyə verilən, tikilməkdə olan və inşası nəzərdə tutulan istehsal və emal müəssisələri barədə dövlətimizin başçısına məlumat verdi.

Qeyd olundu ki, son illərdə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun xəttilə Abşeron rayonu üzrə ümumi dəyəri 360 milyon manat olan 602 investisiya layihəsinin maliyyələşdirilməsinə 200 milyon manat güzəştli kredit verilib. Maliyyələşdirilmiş layihələr hesabına 8700 yeni iş yeri açılıb. Müasir texnologiyalara əsaslanan, ümumi dəyəri 261 milyon manat olan 39 investisiya layihəsinə isə 140,5 milyon manat güzəştli kredit ayrılıb. Nəticədə 3 logistik mərkəz, 7 quşçuluq təsərrüfatı, 14 istixana kompleksi, iki süd emalı zavodu, bir çörək zavodu, bir ət emalı, iki ət kəsimi müəssisəsi, bir mebel fabriki, bir kərpic zavodu və müasir texnologiyalara əsaslanan digər müəssisələr yaradılıb. Prezident İlham Əliyevə müəssisədə istehsal edilən və "SAB" -"Made in Azerbaijan" brendi altında bazara çıxarılan 60 çeşiddə ət və 40 çeşiddə süd məhsullarının nümunələri təqdim olundu. Diqqətə çatdırıldı ki, "Zəhmət-Ruzi" MMC-nin ət və süd məhsulları AZS - keyfiyyət idarəetmə standartlarının sertifikatına və keyfiyyətə nəzarət sisteminin ISO 9001:2000 sertifikatına layiq görülən "SAB" brendi altında bazara çıxarılır.



Dövlətimizin başçısı müəssisədə ət məhsullarının istehsalı prosesi ilə tanış oldu. Bildirildi ki, 7 min tonluq logistika mərkəzi ən müasir avadanlıqla təchiz edilib. Burada illik kəsim gücü 1,8 min ton olan fabrik də fəaliyyət göstərəcək.

Azərbaycan Prezidentinə məlumat verildi ki, illik istehsal gücü 7 min ton olan süd emalı sahəsində 40 çeşiddə süd məhsulları, o cümlədən pasterizə edilmiş süd, pendir, xama, kəsmik, qatıq, dovğa, ayran və digər məhsullar hazırlanır. Tezliklə bu aqrar-sənaye kompleksində dondurma da istehsal olunacaq. Kompleksin xammala olan tələbatı Abşeron və digər rayonlarda fəaliyyət göstərən fermerlərin təsərrüfatlarında tədarük edilmiş məhsul hesabına təmin ediləcək. Azərbaycan Prezidentinə kompleksdəki süd məhsullarının satışadək saxlanma anbarları da təqdim olundu. Komplekslə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Masazır qəsəbəsində yeni inşa olunan 5 nömrəli tam orta məktəbin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, məktəbin tikintisinə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2015-ci ildə başlanılıb. Yüksək keyfiyyətlə aparılan inşaat işləri bu ilin oktyabrında başa çatdırılıb. Məktəbin üçmərtəbəli binasının ümumi sahəsi 4600 kvadratmetrdən çoxdur. Bu təhsil ocağının bir hektarlıq həyətyanı ərazisində idman qurğuları quraşdırılıb. Binanın istilik təchizatı üçün qazanxana, transformator yarımstansiyası, nasosxana və su hovuzu inşa olunub. Yeni məktəb 1200 şagird yerlikdir, burada 41 sinif otağı var. Dövlətimizin başçısına məlumat verildi ki, indiyədək Masazır qəsəbəsində fəaliyyət göstərən dörd məktəbdə şagird sıxlığına görə tədris iki və ya üçnövbəli idi. Bu məktəb fəaliyyətə başladıqdan sonra qəsəbədəki digər məktəblərdə şagird sıxlığı aradan qaldırılacaq.

Ən müasir avadanlıqla təchiz edilən məktəbdə fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, 163 yerlik akt zalı, həmçinin hər cür şəraiti olan yeməkxana yaradılıb. Burada iki emalatxanada da tədrisin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait var. İdman zalı zəruri avadanlıqla təchiz edilib.

# Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir

## *Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanın Baş nazirinin birinci müavinini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Qazaxıstan Respublikasının Baş nazirinin birinci müavini Askar Mamini qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi.***

Dövlətimizin başçısı Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə beynəlxalq tədbirlərdə keçirdikləri görüşləri xatırladaraq, Qazaxıstan Prezidentinin Azərbaycana son rəsmi səfərini əlaqələrimizin inkişafında mühüm hadisə kimi dəyərləndirdi və bu görüşlər zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparıldığını dedi. Əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğunu və artıq müsbət nəticələrin əldə edildiyini deyən Prezident İlham Əliyev Qazaxıstan Respublikası Baş nazirinin birinci müavini Askar Maminin ölkəmizə səfərinin məhsuldar olacağına və səfər zamanı iqtisadiyyat, nəqliyyat, energetika, tranzit yükdaşımaları, investisiya qoyuluşu sahələri ilə bağlı məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu bildirdi.

Cənubi Qafqaz regionunda Azərbaycanın Qazaxıstan üçün strateji tərəfdaş ölkə olduğunu deyən Qazaxıstan Respublikası Baş nazirinin birinci müavini Askar Mamin qeyd etdi ki, ikitərəfli münasibətlərimizin inkişafı istiqamətində böyük potensial var. Qonaq bu potensialın reallaşdırılması üçün birgə səylərin göstərilməsinin önəmini vurğuladı. Askar Mamin Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə təbriklərini Prezident İlham Əliyevə çatdıraraq dedi ki, bu nəqliyyat dəhlizi Asiya-Avropa istiqamətində transkontinental yükdaşımalarının inkişafı işinə böyük töhfə verir. O, əmin olduğunu bildirdi ki, bu dəmir yolu xəttinin işə salınması ilə Azərbaycan, Qazaxıstan və ümumilikdə, transxəzər marşrutunun tranzit potensialı tam həcmdə həyata keçiriləcəkdir. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında da fikir mübadiləsi aparıldı.



## *Rəsmi xronika*

Prezident İlham Əliyev Xırdalan şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Əhliman Əmiraslanovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Azərbaycanın ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Əhliman Tapdıq oğlu Əmiraslanov "Şərəf" ordeni ilə təltif edilsin.

# Bakıda akademik Rəfiqə Əliyevanın 85 illik yubileyinə həsr olunan beynəlxalq elmi konfrans işə başlayıb





***Noyabrın 16-da Bakı Dövlət Universitetində (BDU) görkəmli kimyaçı alim, bu ali təhsil ocağının analitik kimya kafedrasının professoru, ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasının yaradıcısı və rəhbəri, Əməkdar Elm Xadimi, "Şöhrət" ordenli akademik Rəfiqə xanım Əliyevanın 85 illik yubileyinə həsr olunan "Koordinasion birləşmələr kimyası: analitik kimyanın aktual problemləri" mövzusunda beynəlxalq konfrans öz işinə başlayıb.***

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üstünə güllər düzülüb. Sonra konfrans iştirakçıları görkəmli alim, akademik Rəfiqə xanım Əliyevanın xatirəsini anıb, məzarı üzərinə güllər qoyublar. İkigünlük konfransın açılış mərasimində xarici ölkələrin tanınmış alimləri ilə yanaşı, Azərbaycanın elm və təhsil ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatları, dövlət və hökumət rəsmiləri iştirak ediblər.

Tədbirin açılışında çıxış edən BDU-nun rektoru, akademik Abel Məhərrəmov ömrünün böyük hissəsini bu universitetdə ixtisaslı kadrların hazırlanmasına sərf edən Rəfiqə xanım Əliyevanın böyük kimyaçı alim olmaqla yanaşı, Azərbaycanın analitik kimya sahəsində ilk qadın akademiki, bir çox elmi yeniliklərin müəllifi kimi tarixə düşdüyünü bildirib. Akademik Rəfiqə Əliyevanın həyat və fəaliyyətinin bəzi məqamlarına toxunan rektor deyib ki, alim kimya sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edib. Yarım əsrdən artıq elmi və pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyənləşməsinə həsr olunub. Qeyd edilib ki, Rəfiqə Əliyeva üzvi reaktivlərin köməyi ilə metal ionlarının ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatlar aparıb. Görkəmli kimyaçı alimin ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.

Akademik Rəfiqə Əliyevanın rəhbərliyi ilə analitik kimyanın nəzəri və tətbiqi məsələlərinə həsr olunmuş 2 doktorluq və 20 namizədlik dissertasiyası müdafiə edilib. O, 2 monoqrafiya, 33 dərslik və dərs vəsaitinin, 20 patentin və 520-dən çox məqalənin müəllifidir. Moskva Dövlət Universitetinin analitik kimya kafedrasının əməkdaşları tərəfindən nəşr olunmuş ikicildlik "Analitik kimyanın əsasları" və "Analitik kimyadan məsələ və suallar" kitabları onun rəhbərliyi ilə Azərbaycan dilinə tərcümə edilib. Bu kitablar Azərbaycanın ali təhsil müəssisələrinin müəllim, elmi işçi və doktorantlarının inkişafında mühüm rol oynayıb.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsinin dekanı, akademik Valeri Lunin akademik Rəfiqə Əliyeva ilə BDU-da görüşündən danışıb, onun kimya sahəsində elmi məktəb yaratdığını vurğulayıb, kimyaçı alimlərin yetişməsində mühüm rolunu qeyd edib. Rusiyalı alim bildirib ki, Rəfiqə Əliyeva nəinki Azərbaycan kimya elminə, eləcə də dünya kimya elminə böyük töhfələr verib. V.Lunin "Koordinasion birləşmələr kimyası: analitik kimyanın aktual problemləri" mövzusunda beynəlxalq konfransın Azərbaycan və Rusiya kimyaçılarının əməkdaşlığına geniş imkanlar yaratdığını da vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Kataliz və Qeyri-Üzvi Kimya İnstitutunun direktoru, akademik Dilqəm Tağıyev qeyd edib ki, bugünkü konfrans akademik Rəfiqə Əliyevanın şəxsiyyəti və elmi nüfuzu qarşısında hörmətin təzahürüdür. Azərbaycan kimya elmi tarixində Rəfiqə Əliyevanın özünəməxsus yer tutduğunu deyən D.Tağıyev onun elmi tədqiqatlarının sənayeyə tətbiqi imkanlarından bəhs edib.

Rusiya Elmlər Akademiyasının prezidiumunun üzvü, akademik Aslan Çeladze konfransın Rəfiqə Əliyevanın 85 illik yubileyinə həsr edilməsinin təsadüfi olmadığını bildirib. Qeyd edib ki, yalnız Rəfiqə Əliyeva kimi elmi məktəb yaratmış, beynəlxalq müstəvidə tanınan alimlərə həsr olunan belə konfranslar keçirilir. O, Rəfiqə Əliyevanı sadə və təvazökar insan, qayğıkeş ana və həyat yoldaşı, böyük pedaqoq kimi xarakterizə edib. Bildirib ki, onun çoxsaylı tələbələri bu gün dünyanın müxtəlif yerlərində fəaliyyət göstərir və uğurlar əldə edirlər. Tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirən Rəfiqə Əliyevanın qızı, BDU-nun ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva bildirib ki, Rəfiqə xanımın yetirmələri Azərbaycanda, həmçinin dünyanın bir çox ölkələrində fəaliyyət göstərərək böyük alimdən aldıqları bilikləri bəşəriyyətin tərəqqisinə sərf edirlər. Akademik Rəfiqə Əliyevanın elmi fəaliyyətinin nəticələri və irəli sürdüyü elmi konsepsiyaların dünya elmi ictimaiyyəti tərəfindən yüksək dəyərləndirildiyini deyən S.Hacıyeva vurğulayıb ki, onun elmi məqalələri, əsərləri, dərslikləri elm və təhsilimiz üçün əvəzsiz töhfədir. Çıxışlardan sonra bölmə iclasları başlayıb. Beş bölmə iclasında 11 ölkədən gəlmiş iştirakçılar tərəfindən 182 elmi məruzə dinlənilib.

# Siyavuş Novruzov: "YAP-ın üzvləri müstəqil Azərbaycanın inkişafında aktiv iştirak edirlər"



"Ötən 25 il ərzində Azərbaycan böyük inkişaf yol keçib. Bu illər xalqımızın şərəfli tarixidir. 1992-ci ildə Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası dövlətimizin, müstəqilliyimizin qarantı kimi yaradıldı. YAP-ın yaradılmasının 25 illik yubiley mərasimində çıxışında partiyamızın Sədri, cənab Prezident İlham Əliyev ötən illər ərzində qazanılan nailiyyətləri, partiyamızın fəaliyyətini çox yüksək qiymətləndirdi". SİA-nın məlumatına görə, bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, Yeni Azərbaycan Partiyası 1992-ci ildə zərurətdən yarandı: "O dövrdə Azərbaycanda çoxpartiyalı sistem hələ təzə-təzə formalaşırdı. Kimlər isə din adından sui-istifadə edərək partiya yaradırdılar. Ancaq xalq yaxşı başa düşürdü ki, onlardan heç biri Azərbaycanı üzləşdiyi çətinliklərdən qurtarmaq iqtidarında deyil. Xalqımız problemlərdən çıxış yolunu məhz Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsində görürdü. Doğrudur, partiya yaradılanda güclü təzyiqlər olurdu, amma buna baxmayaraq, biz geri çəkilmədik. 91 ziyalının partiya yaradılması ilə bağlı müraciətinə Ulu öndərimiz müsbət cavab verdi".

Ümummilli lider Heydər Əliyevin "YAP dünənin, bu günün, gələcəyin partiyasıdır" fikrini xatırladan S.Novruzov vurğulayıb ki, YAP fəaliyyət göstərdiyi 25 il ərzində düşünülmüş siyasətə, ağlın, idrakın gücünə və mənəviyyata əsaslanaraq ölkəmizi üzləşdiyi çətinliklərdən, məhv olmaq təhlükəsindən, xaosdan, dövlət çevrilişi cəhdlərindən qoruyub. Bu gün müstəqil Azərbaycan dünyada böyük nüfuza malik ölkə kimi tanınır. Eyni zamanda, YAP Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət sayəsində ölkəmizin etibarlı gələcəyinin möhkəm, sarsılmaz əsasları yaradılır.

S.Novruzovun sözlərinə görə, partiyamızın üzvləri müstəqil ölkəmizin inkişafında aktiv iştirak edirlər. Bu gün Azərbaycanın inkişaf edərək güclü dövlətə çevrildiyini söyləyən YAP İcra katibinin müavini qeyd edib ki, ötən 25 ildə qazanılan yüksək nailiyyətlərin arxasında Ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin və Birinci-vitse prezident Mehriban xanım Əliyevanın əməyi dayanır.

# Yeni Azərbaycan Partiyası gənclərin inkişafında mühüm rol oynayır

Bakı Slavyan Universitetində (BSU) Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 25 illiyinə həsr olunan tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə güllər düzülüb.



BSU-nun akt zalında davam edən tədbir Azərbaycan dövlət himninin səsləndirilməsi ilə başlanıb. Universitetin rektoru, professor Nurlana Əliyeva YAP-ın ötən 25 ildə müasir Azərbaycanın dinamik inkişafında son dərəcə mühüm rol oynadığını vurğulayıb. O, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış YAP-ın ölkəmizi bir çox sınaqlardan uğurla keçirdiyini, xalqımızın ideya və arzularını yüksək səviyyədə təmin etdiyini bildirib. N.Əliyeva bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında YAP-ın milli maraqlarımızı ləyaqətlə təmsil etdiyini, hər bir vətəndaşın siyasi və iqtisadi ideallarını gerçəkləşdirməyə çalışdığını, ölkəmizin hərtərəfli inkişafına töhfələr verdiyini söyləyib. Rektor YAP-ın gənclərin inkişafını təmin olunmasında, onların sosial problemlərinin həllində mühüm rol oynadığını nəzərə çatdırıb. N.Əliyeva YAP-ın sıralarına tələbə-gənclərin daha çox qatılmasını Yeni Azərbaycan Partiyasına gəncliyin etimadı kimi dəyərləndirib. Rektor 2016-2017-ci illərdə universitetdə 172 müəllim və 208 tələbənin YAP-ın üzvü olduğunu, 2017-2018-ci illərdə bu rəqəmlərin müvafiq olaraq 285 və 331-ə çatdığını bildirib. Bu gün gənclərin dövlət quruculuğunda, ölkəmizin siyasi nüfuzunun, iqtisadi gücünün artmasında, mənəvi-mədəni potensialının yüksəlməsində gücləri sınamağa çalışdıqları vurğulanıb.

YAP icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətindən bəhs edib. O, Ümummilli Liderin bütün zamanlarda - həm Sovet dövründə, həm müstəqillik uğrunda mübarizə illərində, həm də müstəqil Azərbaycanda dövlət quruculuğu dönəmində xalq sevgisi və məhəbbəti ilə əhatə olunduğunu diqqətə çatdırıb. S.Novruzov bunun ulu öndər Heydər Əliyevin müstəsna şəxsiyyəti ilə, Azərbaycana bağlılığı ilə izah edib. S.Novruzov YAP-ın idarəçilik tarixini Azərbaycanın şərəf tarixi kimi dəyərləndirib, partiyanın uğurlarını onun təməlinin düzlük və təmizlik üzərində qurulması ilə əlaqələndirib. İcra katibinin müavini bu gün partiya sıralarının 40 faizini gənclərin təşkil etdiyini bildirib. O, partiyada qadınların xüsusi fəallıqları ilə seçildiklərini xüsusi vurğulayıb.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov YAP-ın yaranma tarixindən, partiyanın əldə etdiyi nailiyyətlərdən və ölkənin ictimai-siyasi həyatındakı rolundan danışıb. Təhsil Nazirliyinin nümayəndəsi Əhliyyət Adıgözəlov təhsil sahəsində aparılan uğurlu islahatlar, ölkədə gedən quruculuq və abadlıq işləri barədə məlumat verib. Ölkədəki 4.147 məktəbdən üç mininin yenidən qurulduğu diqqətə çatdırılıb.

BSU-nun tələbəsi Sevinc Əlizadə Yeni Azərbaycan Partiyasının gənclərə daim xüsusi diqqət və qayğı ilə yanaşdığını qeyd edib. Vurğulanıb ki, dövlətin gənclər siyasətinin əsas məqsədi gənclərin təşəbbüslərinin dəstəklənməsidir. Sonda YAP-a üzv olan işçi və tələbələrə vəsiqələr təqdim edilib.

# Milli dirçəlişdən milli tərəqqiyə doğru

## *17 Noyabr Milli Dirçəliş Günüdür*

***Tarixən keşməkeşli yol keçən, əsrlərin sınaqlarından çıxan Azərbaycan müstəqil dövlətə sahib olmaq naminə əzmkarlıqla mübarizə aparıb, azadlıq uğrunda mücadilə edib. Azərbaycan xalqı mübarizələrlə dolu tarixi yol keçərək azadlıq, müstəqillik və dirçəliş yoluna qovuşa bilib. Bu gün xalqın istiqlal mücadiləsinin əsas mərhələlərindən biri olan 17 Noyabr - Milli Dirçəliş Günüdür. Bu gün qeyd etdiyimiz Milli Dirçəliş Günü də, məhz xalqın istəklərini reallaşdırmaq məqsədindən güc alıb.***




Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı anti-Azərbaycan siyasəti nəticəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda antisovet xalq hərəkatı təşəkkül tapdı və 17 noyabr 1988-ci ildə Bakının əsas meydanı sayılan "Azadlıq" meydanında Azərbaycan xalqının uzunmüddətli mitinqləri başladı. Qeyd edək ki, Ermənistanda və Qarabağın dağlıq hissəsində Azərbaycan xalqına qarşı yönəldilmiş soyqırımı Sovet ordusu tərəfindən dəstəklənirdi. O zamankı SSRİ rəhbərliyi ermənilərlə əlbir olub Dağlıq Qarabağı işğal edərək Ermənistanın nəzarətinə verməsi istiqamətində atdığı addımlar xalqın səbir kasasını daşırmışdı. Xalqımız imperiya buxovlarından və əsarət zəncirindən azad olmaq istəyirdi. Azərbaycanda meydan hərəkatı geniş vüsət aldı. Bu milli hərəkat xalqın dirçəlişi idi. Respublikamızın bütün şəhər və rayonlarını bürümüş qüdrətli xalq hərəkatı kommunist rejimini Azərbaycandan süpürüb atmaq təhlükəsi yaratmışdı. Bundan qorxuya düşən imperiya başçıları noyabrın 24-dən 25-nə keçən gecə Bakıya qoşun yeritdilər. Lakin xalq geri çəkilmədi. Sovet rejimindən Ermənistanda və Dağlıq Qarabağın dağlıq hissəsində erməni separatçılığına və terrorizminə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlamış "meydan hərəkatı" tezliklə Azərbaycanı müstəqilliyə çağıran şüarlara keçdi. Azərbaycanda bu hadisələr milli-azadlıq hərəkatı kimi qiymətləndirilir və respublikamızın istiqlaliyyət qazanmasında əsas amil sayılır. Dekabrın 4-dək 18 gün aramsız davam edən aksiyalara 1 milyonadək insan toplaşmışdı. Bu, keçmiş Sovet İttifaqında ən genişmiqyaslı kütləvi çıxışlar idi. 1988-ci ilin 17 noyabrında başlanan kütləvi çıxışlar Azərbaycanın tarixinə milli dirçəliş aksiyaları kimi düşdü. Öz haqqı, azadlığı və torpaqlarına sahib çıxmaq istəyən xalqımız bu müqəddəs ideallar naminə birlik və bərabərliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də Ulu Öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. İmperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından qeyd etdiyimiz sözlərin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi. Bununla Ümummilli Lider Heydər Əliyev milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atdı. Noyabrın 17-də muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürülmüşdür. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsadət qaldırmışdır. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyulmuşdur.

1991-ci ilin martında Azərbaycan SSR Ali Sovetinin iclasında çıxış edən Ulu Öndər Heydər Əliyev gələcək mübarizə və inkişaf yolunu müdrikliklə bəyan edərək belə deyirdi: "Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır". Ümummilli Lider Heydər Əliyev bütün həyatı boyu bu müqəddəs amala sadiq qaldı, xalqın və Vətənin istiqlalı uğrunda fədakarlıqla mübarizə apardı.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında Azərbaycanın dövlət müstəqilliyi haqqında "Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Müstəqilliyini qazandıqdan sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan savadsız, səriştəsiz adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılıq hərəkatı müstəqilliyi itirmək təhlükəsi yaratmışdır. Böyük siyasi təcrübəyə malik olan Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu təhlükə aradan qalxdı. Öz müstəqilliyinin təməlini möhkəmləndirən ölkəmiz artıq demokratik, hüquqi və dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Ona görə də, XX əsr xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qalacaqdır.

17 noyabr bir daha göstərdi ki, bütün ciddi-cəhdlərə baxmayaraq, azad yaşamaq üçün xəlq olunmuş milləti müstəmləkə boyunduruğu altında saxlamaq qeyri-mümkündür. Zəngin tarixə malik xalqımız artıq neçə ildir ki, Milli Dirçəliş Gününü bayram kimi qeyd edir və bu günün qeyd olunması bütün Azərbaycan xalqının mənəvi haqqıdır.

İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub-saxlanılır, inkişaf etdirilir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub-saxlanmasına xüsusi diqqət yetirir. Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Bu gün Azərbaycan gələcəyə inamla baxır. Prezident İlham Əliyev ölkəmizi gələcəyə və yeni uğurlara inamla aparır. Bu, bir reallıqdır ki, müasir dünyada xarici ölkələr Azərbaycanın mövqeyi ilə hesablaşırlar. Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin xilas edib inkişaf yoluna çıxardığı dövləti daha da möhkəmləndirib. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil, dünyəvi və inkişaf edən bir ölkədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycanın və Moldovanın Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq daha da genişlənir

***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Moldovanın daxili işlər naziri Aleksandr Jizdan ölkəmizdə səfərdədir.***



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində daxili işlər naziri, general-polkovnik Ramil Usubov Moldova Respublikasının daxili işlər naziri Aleksandr Jizdanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Nazir R.Usubov xalqlarımızı hər zaman möhkəm dostluq telləri bağladığını, son illər respublikalarımız arasında bütün sahələrdə dialoq və əməkdaşlığın genişlənərək yüksək səviyyəyə çatdığını, dövlətlərimizin başçılarının siyasi iradəsi və qarşılıqlı səfərlər nəticəsində əlaqələrin daha da dərinləşdiyini xatırladıb.

Ölkələrimizin müvafiq strukturları arasında uzun illərdir mövcud olan sıx və işgüzar əlaqələri diqqətə çatdıran general-polkovnik R.Usubov istər ikitərəfli, istərsə də çoxtərəfli formatda - Beynəlxalq Kriminal Polis (İnterpol), Qara Dəniz İqtisadi Əməkdaşlıq (QDİƏT) və GUAM təşkilatları çərçivəsində işbirliyinin uğurla davam etdirildiyini, xüsusən qabaqcıl təcrübə və məlumat mübadiləsində maraqlı olduğumuzu, belə görüşlərin münasibətlərin daha da inkişaf etdirilməsinə yeni töhfə verəcəyinə ümidvar olduğunu bildirib. Qonağa ölkədəki kriminogen durum, müstəqilliyin ilk illərində ictimai-siyasi vəziyyət, xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışı, onun rəhbərliyi ilə həyata keçirilən köklü hüquqi-demokratik və sosial-iqtisadi islahatlar, cinayətkarlıqla qətiyyətli mübarizə, sabitliyin bərpa edilməsi və möhkəmləndirilməsi istiqamətlərində görülən işlər barədə məlumat verilib.

Nazir əsası Ulu Öndər tərəfindən qoyulmuş, ölkəmizin dünyada müstəqil siyasət yeritməsinə və milli maraqların qorunmasına əsaslanan, islahatlar və demokratik dəyişikliklər kursunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, xidməti fəaliyyətin təkmilləşdirilməsi, yeni informasiya texnologiyalarının tətbiqi, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımların atıldığını vurğulayıb.

Xüsusilə qeyd olunub ki, hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi, hüquq qaydasına riayət edilməsinə videonəzarətin fasiləsiz həyata keçirilməsi, fövqəladə vəziyyətlərə çevik reaksiya verilməsi funksiyalarının yerinə yetirilməsi məqsədilə Nazirlikdə "Təhlükəsiz Şəhər" Xidmətinin, "102-Zəng Mərkəzi"nin yaradılması, inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübəsi nəzərə alınmaqla "sahə rəisi" kimi yeni təsisatın uğurla tətbiqi ilk növbədə vətəndaş məmnunluğunun təmininə, onların müraciətlərinə operativ şəkildə reaksiya verilməsinə, həssaslıqla yanaşılmasına xidmət edir. Moldovanın daxili işlər naziri Aleksandr Jizdan yüksək qonaqpərvərliyə və ətraflı məlumata görə təşəkkür edib, səfərin iki ölkənin Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni təkan verəcəyinə əminliyini bildirib. O, rəhbərlik etdiyi qurumun da bu istiqamətdə səylərini əsirgəməyəcəyini, azərbaycanlı həmkarlarının cinayətkarlıqla mübarizə, ictimai asayişin təmini sahəsində əldə etdikləri müsbət təcrübənin öyrənilməsində maraqlı olduqlarını vurğulayıb. Qonaq son illər Azərbaycan DİN-in Polis Akademiyasını bitirmiş 22 məzunun hazırda Moldova daxili işlər orqanlarının sıralarında uğurla xidmət etdiklərini, yüksək ixtisaslı, ali təhsilli hüquqşünas kadrların hazırlanmasında ölkəmiz tərəfindən göstərilən dəstəyin bundan sonra da davamlı olmasının onlar üçün mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Görüşdə əməkdaşlığın prioritet istiqamətləri və perspektivləri, narkotiklərin qanunsuz dövriyyəsi, habelə transmilli mütəşəkkil cinayətkarlığın digər növləri ilə mübarizə, informasiya mübadiləsinin intensivləşdirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

Sonda Aleksandr Jizdan Azərbaycanın daxili işlər nazirini ölkəsinə səfərə dəvət edib. Səfər çərçivəsində qonaqlar Daxili İşlər Nazirliyinin "102-Zəng Mərkəzi"nə və "Təhlükəsiz şəhər" xidmətinə, paytaxtdakı polis sahə məntəqələrindən birinə, həmçinin Əlahiddə Çevik Polis Alayına gedərək həmin qurumların fəaliyyətləri ilə yaxından tanış olublar.

## Vüqar Rəhimzadə: “YAP dövlətə xidmət nümunəsini ortaya qoydu”



“Yeni Azərbaycan Partiyası yaranması ilə xalqın Ulu Öndər Heydər Əliyevə olan sevgisini ortaya qoyub”. Bu fikirləri SİA-ya “İki Sahil” qəzetinin baş redaktoru, YAP Siyasi Şurasının üzvü Vüqar Rəhimzadə deyib. O bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanda ictimai-siyasi sabitliyin olmadığı, anarxiyanın hökm sürdüyü bir dövrə təsadüf edib: “O dövrdə ölkəmizdə iqtisadi inkişaf deyil, iqtisadi tənəzzül günü-gündən dərinləşir, insanların sabaha olan inamı azalır, ümidi itirdi. O dövrdə YAP müxalifət partiyası kimi yarandı, Ümummilli Lider təkidlə bu partiyanın sədri seçildi. Vaxtilə Ulu Öndərin və hazırda da Prezident İlham Əliyevin sədri olduğu partiyanın üzvü olmaq qürurverici və şərəflidir”.

V. Rəhimzadə söyləyib ki, yarandığı dövrdə 550 nəfərdən ibarət olan bir partiya bu gün 700 mindən artıq üzvü özündə birləşdirir: “Partiya üzvləri ölkənin siyasi-ictimai həyatında kifayət qədər aktiv, yaşadıqları ərazidə, fəaliyyət göstərdikləri nüfuz sahibidirlər”. Baş redaktor vurğulayıb ki, ümumiyyətlə partiyanın yaranması Azərbaycanda ictimai-siyasi ab-havanı, mühiti dəyişdi və xalqa, dövlətə xidmət nümunəsini ortaya qoydu: “Bu gün artıq partiyanın 25 yaşı tamam olur. Hesab edirəm ki, YAP tək Azərbaycanda, regionda deyil, bütün dünyada ən böyük siyasi qüvvələrdən birinə çevrilməkdədir”.

“Bildiyiniz kimi partiyanın əksər üzvlərini gənclər təşkil edir. Gənclərin partiyaya üzv olması YAP-ın daimi, əbədi olmasının, fəaliyyətinin daha da gəncləşməsinə xidmət edir. Ümumilikdə isə YAP bütün xalqın partiyasıdır. Bu baxımdan partiyanın 25 illik yubileyi münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm”- deyə, V. Rəhimzadə əlavə edib.

## Pakistanın Sind əyalətinin Baş naziri: Azərbaycanla əməkdaşlığa hazırıq



Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Sind əyalətinə səfəri zamanı Kəraçi şəhərində əyalətin Baş naziri Seyid Murad Əli Şah ilə görüşüb. Görüşdə Əli Əlizadə Azərbaycanla Pakistan arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin hər iki ölkənin əyalətlərinə də sirayət etdiyini və bu əlaqələrin inkişafının zəruri olduğunu bildirib. Hər iki ölkənin bir-birinə göstərdiyi dəstəyin önəmini vurğulayan səfir 2011-ci ildə Pakistanda, o cümlədən Sind əyalətində baş vermiş daşqınlar zamanı Azərbaycanın Pakistanın yanında olduğunu və öz qardaşlıq köməyini göstərdiyini xatırladıb. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanın müxtəlif əyalətlərində həyata keçirilən sosial-humanitar layihələr haqqında məlumat verən səfir belə layihələrin xalqlarımız arasında dostluq və qardaşlıq tellərini daha da möhkəmləndirdiyini qeyd edib. Bu il noyabrın 9-dan 12-dək Kəraçidə keçirilən ticari-iqtisadi yönümlü sərgidə azərbaycanlı iş adamlarının da iştirak etdiyini bildirən Ə.Əlizadə Azərbaycanda xarici investorlar üçün yaradılan münbit şərait haqqında məlumat verib. O, Pakistanın Sind əyaləti ilə də ticari-iqtisadi sahədə əlaqələrin genişləndirilməsində iş adamlarının geniş imkanlarının olduğunu qeyd edib.

Əyalətin Baş naziri Seyid Murad Əli Şah Azərbaycan-Pakistan əlaqələrinin inkişafından məmnun olduğunu bildirib, Sind əyalətinin də Azərbaycanla əməkdaşlığa hazır olduğunu diqqətə çatdırıb. O, əlaqələrin inkişafı üçün əyalətin imkanları haqqında məlumat verib, azərbaycanlı iş adamlarını əyalətdə həyata keçirilən ticari-iqtisadi, xüsusən alternativ enerji layihələrində iştiraka dəvət edib.

Səfir Sind əyalətinə səfəri zamanı, həmçinin Kəraçi şəhərinin meri Vasim Axtar, Türkiyənin bu şəhərdəki baş konsulu Murat Mustafa Onart, Pakistan “Herald Publications Limited” şirkətinin və “Dawn” Qəzetlər Qrupunun rəhbəri Həmid Harunla da görüşlər keçirib.

# “Reket jurnalistikası ilə mübarizə lazımdır, vacibdir və zəruridir!”

### *“SƏS” qəzetinin baş redaktoru Bəhruz Quliyevin müsahibəsi*

***- Bəhruz müəllim, son zamanlar ölkəmizdə reket jurnalistikası kifayət qədər artıb. Sizcə, bu qanunsuz üsul Azərbaycanda nə zamandan ayaq açıb, ümumiyyətlə, problemin kökündə hansı amillər dayanır?***

- Çox doğru buyurdunuz ki, ölkəmizdə reket jurnalistikası kəskin şəkildə artıb. Bu arzuolunmaz halın get-gedə artması, əslində, müstəqil Azərbaycan mətbuatına və uzun illərə söykənən Azərbaycan jurnalistikasına çox ağır zərbələr vurur. Bildiyimiz kimi, hələ SSRİ dönəmində mətbuatda sağlam tənqid sistemi olub və bu profildə çalışan jurnalistlər heç bir məqsəd güdmədən yanaşdığı mövzularda sərt tənqidi yazıları və məqalələri ilə çıxış edirdilər. Lakin bu siyasi üsul-idarə sistemi süquta uğradığı ərəfələrdə ictimailəşdirilmiş “aşkarlıq” və “demokratiya” tezisləri sonradan reketçilik üsulu ilə əvəzləndi və təəssüf ki, reketçilik jurnalistikası çirkli yaratək kök salmağa başladı. Bu gün reketçilik deyildikdə, biz həmin halın yalnız Azərbaycanda deyil, digər ölkələrdə də mövcudluğunu müşahidə edirik. Məgər biz xarici ölkələrdə fəaliyyət göstərən bir sıra mətbu orqanların zaman-zaman öz çirkin məqsədlərini reallaşdırmaları üçün ölkəmizə qarşı qondarma siyasi ittihamlar atmalarının şahidlərinə çevrilmirikmi? O cümlədən, xarici ölkələrdə də insanlar reket jurnalistikası vasitəsi ilə təqib və şantajlara, eləcə də, böhtanlara məruz qalırlar. Ümumiyyətlə, Azərbaycana gəldikdə, ölkəmiz müstəqilliyini yazandıqdan sonra, uzun illər sağlam jurnalist fəaliyyəti göstərənləri reket jurnalistlər əvəzləməyə başladılar və bu, mütəmadi şəkil almağa başladı. Hətta deyərdim ki, həqiqi jurnalistika get-gedə müxtəlif vasitələrlə sıxışdırılmağa məruz qaldı. Müstəqil medianın yaranması bu faktoru genişləndirməyə başladı və nəticələr heç də ürəkaçan olmadı. Düşünürəm ki, bu gün jurnalistikadakı bu cür mənfi və neqativ tendensiyalar daha ciddi fəsadlara şərait yaradır. Bu cür halın genişlənməməsi üçün təcili tədbirlərin görülməsinə ehtiyac yaranıb.

***-Sizin fikrinizcə, fəsadlar nədir və bu gün ölkəmizdə reket jurnalistikası nəyə görə bu qədər “populyarlaşıb”?***

-Təbii ki, burada əsas məqam asan və qanunsuz yollarla maddi gəlir əldə etməkdir. Baxın, hazırda ölkəmizdə ciddiyyəti və nüfuzu ilə, informasiya və innovativ sferadakı fəaliyyəti ilə seçilən bir neçə sayt və portallar mövcuddur. İnformasiya resurslarını özləri istehsal edərək oxuculara çatdıran sayt və portallar bir neçə dəqiqədən bir ölkə daxilində və xaricdə baş verən siyasi, mədəni, idman, sosial və s. sahələri əhatə edən məlumatlar yayır, müxtəlif təhlilləri, şərhləri, müsahibə və açıqlamaları oxucu kütləsinə təqdim edirlər.



Lakin gəlin, görək reketçiliklə məşğul olanlar nə edirlər? Onlar ictimai rəyin gözündən pərdə asmaq üçün gün ərzində uzağı bir, ya da iki məlumatı köçürmə yolu ilə oğurlayıb (copy paste-red.) öz saytlarına yerləşdirməklə “informasiya yaymaq prinsipi” əsasında işlərini bitmiş hesab edirlər və bundan sonra çirkin və qanunsuz əməllərini davam etdirirlər. İctimai rəydə, cəmiyyət arasında tanınan insanlara, iş adamlarına, dövlət müəssisələri rəhbərlərinə və başqa insanlara qarşı şər-böhtan xarakterli yazılar dərc edib, bilavasitə cinayət əməllərinə yol vermiş olurlar. Maraqlısı da budur ki, bir-birilərindən fəaliyyətləri ilə seçilməyən reket saytlar və qəzetlər əllərində olan böhtan xarakterli məlumatları bir-birilərinə ötürərək, gündəmə çıxardıqları şəxsləri bir neçə gün, hətta bir neçə ay ictimai rəyin diqqətində saxlamağa çalışırlar. Biz, burada iki halın şahidi oluruq ki, reket ya da yalançı saytlar kimi fəaliyyət göstərənlər, əslində, dövlət qeydiyyatından belə keçmirlər. Keçdikdə isə, həmin syatları açan şəxslər və uzağı, bir-iki nəfər dırnaqarası “jurnalist”lər ciblərinə vəsiqə qoyub, öz imtiyazlarından sui-istifadə etməyə, reketçilik üsulu ilə cinayət əməlləri törətməyə başlayırlar.

Bu gün istənilən media resursunun internet üzərindən aşaraq yaradılması və yayılması üçün ölkəmizdə kifayət qədər asan şərait yaranıb, lakin qeydiyyatdan keçənlər lazım olan digər müvafiq dövlət orqanlarından, məsələn, vergiyə, pensiya fonduna və s. özləri barədə heç bir məlumat vermirlər. Çünki yaxşı bilirlər ki, əgər onlar qanuni yollarla fəaliyyət göstərsələr, müvafiq dövlət orqanlarında qeydiyyata düşsələr, öz çirkin və cinayət tərkibli əməllərini rahat şəkildə həyata keçirə bilməyəcəklər. Nəticədə, sağlam və intellektual jurnalistikaya, həqiqətən də, çox ağır zərbələr vurulur və ictimai rəydə jurnalistika sahəsinə etibar və inam azalmağa başlayır. Belə ki, reket jurnalistlər jurnalist adına qara ləkə kimi düşürlər. Belə davam edəcəyi halda, yalnız bir yol qalır - irinli və inkişaf edən yaranı kəsib-atmaq zəruriliyi.

***- Bəhruz müəllim, bəs sizcə, bu cür təəssüfedici vəziyyətin qarşısının qəti olaraq alınması üçün hansı zərurətlərə ehtiyac duyulur?***

- Məncə, real zərurətlərdən biri və ən əsası, ilk olaraq sərt, hətta deyərdim, barışmaz və çox qətiyyətli addımların atılması, qanunların qəbul edilməsinin vacibliyidir. Əks halda, biz ölkə jurnalistikasının deqredasiyası ilə qarşı-qarşıya qalması təhlükəsini də yaşaya bilərik. İlk növbədə, reket jurnalistikasına qarşı tətbiq edilən cəzalar daha da sərtləşdirilməli, müvafiq dövlət və media sahəsinə aid ictimai instansiyalarda ardıcıl tədbirlərin keçirilməsi üçün davamlı hərəkətə keçilməli, reketçilik jurnalistikasına qarşı açıq mübarizəyə start verilməlidir. Misal üçün, hazırda da fəaliyyət göstərən mövcud saytlar bloklanmalı, onların rəhbərləri qanunvericilik əsasında cavabdehlik daşımalıdırlar. Demək istədiyim budur ki, reketçilik jurnalistikasının qarşısının alınması və aradan qaldırılması istiqamətində atılan hər bir addım, bilavasitə qanunlarımız vasitəsi ilə tənzimlənməli və həyata keçirilməlidir.

Qeyd edim ki, Mətbuat Şurasının reketizmlə bağlı tədbirləri, ictimai qınaqları da yetərli deyil. Eyni zamanda, reketçiliklə məşğul olan jurnalistlər konstitusion hüquqa əsaslanaraq, cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Məhz bu baxımdan, hesab edirəm ki, daha böyük fəsadların, daha arzuolunmaz hallarin yenidən yaranmaması üçün, reket jurnalistikası ilə mübarizə lazımdır, vacibdir və zəruridir!

**Rövşən NURƏDDİNOĞLU**

## Azərbaycan, Pakistan və Türkiyə XİN rəhbərlərinin görüşünün tarixi məlum olu



Azərbaycan, Pakistan və Türkiyə xarici işlər nazirlərinin görüşünün noyabrın 30-da Bakıda keçirilməsi gözlənilir. Bunu SİA-ya Pakistanın Azərbaycandakı səfiri Səid Xan Mohmand deyib. Səfirin sözlərinə görə, görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunacaq. Qeyd edək ki, bir müddət əvvəl Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirmişdi ki, bu görüş 3 ölkə arasında mövcud olan məsələləri, təhdid və çətinlikləri müzakirə etmək baxımından çox vacibdir. Nazir bildirmişdi: “Azərbaycan XİN səviyyəsində bir çox görüşlər keçirir. İndi Pakistan da bu formata qoşulur. Fikrimcə, bu format çox rahat və düzgündür”.

# Hikmət Babaoğlu: "Reket" jurnalistikasına qarşı bir neçə mübarizə metodları var"

***"Jurnalistika daim inkişafda olan, cilalanan sahədir. Çünki, intellektin, yaradıcılığın sonu yoxdur və bu proses hansı cəmiyyətdə sürətlə gedirsə, o cəmiyyətdə inkişaf müşahidə olunur". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.***

O bildirib ki, jurnalistika, mətbuat hər bir dövlətin intellektual brendlərindən biri hesab olunur: "Jurnalistika cəmiyyəti fikir istehsalı ilə təmin edir. Jurnalistika cəmiyyətdə ictimai münasibətləri yaratmaqla yanaşı, kütləvi maarifləndirmənin keyfiyyətini müəyyənləşdirir. Çünki mətbuatın cəmiyyətə təqdim etdiyi intellektual məhsullar cəmiyyət tərəfindən mənimsənilir, ayrı-ayrı fərdlərin düşüncələrində, davranışlarında dünya görüşlərində yeni keyfiyyət dəyişikliyi yarada bilir. Biz arzu edirik ki, jurnalistika sözü ilə "reket" sözü bir arada işlənilməsin və ən qısa müddətdə Azərbaycan jurnalistikasının keçmişi hesab olunsun. Bu istiqamətdə işlər aparılır".



Baş redaktorun sözlərinə görə, "reket" jurnalistikasına qarşı bir neçə mübarizə metodları var və hazırkı mərhələdə Azərbaycan ən effektiv metod olan onların ictimai qınaq və ictimai institutlar vasitəsilə cəzalandırılmasından istifadə edir: "Əslində Azərbaycanda "reket" jurnalistikasının sıradan çıxarılması üçün çox böyük yol qət edilib. Belə jurnalistika 1990-cı illərin əvvəllərində Azərbaycanda xaos mühiti yaradılan zaman meydana çıxıb. Çox təəssüf ki, hələ də o dövrün fəsadlarından əziyyət çəkirik. Amma hər halda görünür belə bir məsələ bütövlükdə jurnalistikanın xarakterində var. Bəzən bizim transmilli media kimi səciyyələndirdiyimiz jurnalistikanın davranışlarında da buna bənzər elementlər hiss edirik. Hətta ən nüfuzlu media orqanları tərəfindən buna bənzər addımlar atılır. Misal üçün dövlət başçıları şantaj edilir, liderlər və ya ayrı-ayrı dövlətlər haqqında böhtan xarakterli yazılar yazırlar. Düzdür, buradakı münasibətlərdən əldə olunan dividendlər maliyyə olmasa da, hər halda bu cür yazılar böyük dividendlərin əldə olunmasına hesablanıb. Belə olan halda, görünür biz bundan tam şəkildə xilas ola bilməyəcəyik ".

"Reket" jurnalistlərə qarşı cəzaların sərtləşdirilməsi məsələsinə gəlincə, Milli Məclisin deputatı bildirib ki, əgər hüquq pozuntusu varsa, orada cəza mexanizmi tətbiq olunmalıdır və bu, hər bir dövlətin başlıca funksiyasından biridir: "Azərbaycanda da insan hüquqlarının müdafiəsi istiqamətində bir sıra qanunlar qəbul edilib. Onların təmin olunması ilə əlaqədar hüquq sistemi işlək halda, insanları islah etmək, bir qədər doğru deyil. Çünki Azərbaycan prezidentinin hüquq sistemi ilə bağlı müəyyənləşdirdiyi siyasət cəza hüququnun humanistləşdirilməsinə söykənib. Bildiyiniz kimi bu yaxınlarda bununla bağlı xüsusi addımlar atıldı. Bu baxımdan düşünürəm ki, islah etmək sonuncu cəza olaraq nəzərdən keçirilə bilər. Amma hər halda cəmiyyət özü elə insanlar yetişdirməlidir ki, onların özü belə münasibətləri könüllü sürətdə rədd etsin. Bu, bir qədər uzunmüddətli olsa da, lakin ən effektiv prosesdir".

## Rəsmi Bakı XİN rəhbərlərinin görüşünün keçirilməsinə razıdır



Rəsmi Bakı Vyanada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsinə razıdır. SİA-nın məlumatına görə, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib ki, bu təklif Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə Moskvada keçirdiyi görüşdə səsləndirilib. Onun sözlərinə görə, görüş əsnasında təklif olunub ki, 7-8 dekabr tarixlərində Vyanada keçiriləcək ATƏT-in xarici işlər nazirlərinin toplantısı çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirilsin. Azərbaycan tərəfi bu təklifə öz razılığını bildirib.

## SOCAR Karbamid zavodundan nə qədər gəlir əldə edəcək?




"SOCAR Karbamid zavodunun ixrac etdiyi məhsullardan ildə 150 milyon dollar gəlir əldə edəcək". SİA xəbər verir ki, bunu Bakıda Azərbaycanda Amerika Ticarət Palatası ("AmCham") üzvlərinin SOCAR və BP-nin yüksək vəzifəli rəsmilərinin fəaliyyətini səciyyələndirən Azərbaycanın neft strategiyasına həsr olunan işgüzar naharda SOCAR prezidenti Rövnəq Abdullayev deyib. Onun sözlərinə görə, 2011-ci ildə təməli qoyulan SOCAR Karbamid zavodunda tikinti işlərinin 2017-ci ilin sonunda yekunlaşması və zavodun 2018-ci ilin əvvəlində istifadəyə verilməsi planlaşdırılır. "Ümumi investisiya dəyəri 750 milyon avro olacaq zavoda istehsal ediləcək məhsulların daxili bazarın təminatı ilə yanaşı, Türkiyə, Gürcüstan, Aralıq dənizi ölkələrinə ixrac etməyi nəzərdə tuturuq", - deyə R. Abdullayev vurğulayıb.

## "Amtimes": Sarkisyan mənasız səfərləri ilə dövlət büdcəsinə ziyan vurmaqdan başqa bir iş görmür

Ötən həftə Ermənistan prezidentinin Hindistana etdiyi səfər yenə də ölkə mətbuatının diqqətində olub. "Amtimes" saytı yazır ki, son vaxtlar Ermənistan prezidentinin səfərlərindən baş açmaq olmur. Prezident səfərə gedir, lakin bu səfərlərin mahiyyəti heç kimə aydın deyil. Hindistanda səfərdə olan S.Sarkisyan bu ölkənin Baş naziri ilə görüşərək boğazdan yuxarı bəyanatlardan başqa bir söz demədi. "Görəsən, Hindistan ilə Ermənistanı bir-birinə bağlayan nədir?" sualını qoyan sayt yazır ki, 1 milyard 200 milyon əhalisi olan Hindistan üçün Ermənistan, ümumiyyətlə, bazar sayılmır. Hindistan isə Ermənistan üçün bazar ola bilməz. Çünki Ermənistanın elə bir istehsalı yoxdur ki, Hindistanı təmin etsin. Son illərdə Hindistan Ermənistan iqtisadiyyatına cəmi 100 min dollar sərmayə yatırıb. Bu, gülməli rəqəmdir. Ermənistan isə Hindistana zibilxanalardan yığılan metal qırıntılarını ixrac edir ki, bu da üçüncü ölkələrin vasitəsilə həyata keçirilir. Sayt qeyd edir ki, ola bilsin S.Sarkisyan Hindistan ilə iqtisadi əlaqələr qurmaq istəyir. Lakin hansı potensialla?. Qeyd olunur ki, prezident S.Sarkisyan belə mənasız səfərləri ilə dövlət büdcəsinə ziyan vurmaqdan başqa bir iş görmür.(AZƏRTAC)






## Əks halda, "demədi" deməyin...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Hər bir sahədə çalışan insan üçün əsas dəyər onun öz işinə məsuliyyətlə yanaşması və həmin işinə dəyər verməsidir. Rəngsaz öz fırçasını, dülgər öz rəndəsini, fotoqraf fotoaparatını, musiqiçi ifa etdiyi musiqi alətini, lap elə qəssab da öz baltasını sevdiyi və dəyər verdiyi kimi, jurnalist də öz qələminə dəyər verir. Ancaq naşılar və öz peşəsinə sadiq olmayanlar, necə deyərlər, öz "çörək ağacına" nankorluq edib, onu qiymətdən sala bilər. Sözümün isə canı var...***

Uzun illərə söykənən Azərbaycan mətbuatının öz ənənəsi, jurnalistika məktəbi formalaşıb. Xüsusilə, tənqidi sferada milli mətbuatımız digər ölkələrin mətbuatını öz əsrarəngizliyi ilə üstələyir. Ümumiyyətlə, "Əkinçi"dən başlayaraq, "Molla Nəsrəddin"ə qədər, "İrşad", "İqbal", "Ülfət" və s. çoxsaylı qəzet və dərgilərimizdə zamanına uyğun tənqidlər yazılıb ki, el dili ilə desək, daşı belə dəlib-keçib. O da əbəs deyil ki, hətta dahi şəxsiyyətlərimiz öz qələmlərinin itiliyini tənqidi yazıları ilə yoxlayıblar. Təkcə, böyük bəstəkarımız Üzeyir Hacıbəylinin "Ordan-burdan" toplusunu oxuyarkən, bu günün özündə də ortaya çıxarılan tənqidi düşüncələrdən həzz alırıq. Bax, belədə tənqdi mətbuatımız gəlib çıxıb müasir dövrlərimizə və təəssüf ki, zəngin milli mətbuat tariximizi ləkələyən ünsürlər meydana çıxmağa başlayıblar və tənqidi reketçilik deyilən bir "qara yara" ilə üzləşmişik. Şantaj, böhtan, qərəz, hikkə və leksikonumuza aid olan müxtəlif cür mənfi təsir bağışlayan ifadələri özündə toplayan reketçilik amili tamamilə çərçivədən çıxıb və jurnalistika adına ağır yaralar vurub. Bu gün özünü real jurnalist hesab edən və cəmiyyətdə də bu cür tanınan hər bir qələm sahibi digərləri qarşısında bu peşəyə sahib olduğunu deyərkən ehtiyat edir. Çünki bu ada ləkə gətirənlər elə bu adı aşağılayıb, ucuzlaşdırıb və ona xəyanət edib!

İnsanların şəxsiyyətlərinə, ləyaqətlərinə, hətta ailə üzvlərinə - uşaqlarına belə məhəl qoymadan haqlarında ağıllarına və ağızlarına gələni mürəkkəb suyuna bulaşdıranların günahıdır ki, cəmiyyətdə JURNALİST adına bəzən "zurnalist" damğası vurulur. Əlbəttə, öz peşəsini sevən və qələminə hörmət qoyan qələm sahibi üçün bu ifadə çox ağır bir amildir. Sual yaranır: nəyə görə illər öncə, bu mötəbər peşəyə istehzalı ayamalar qoşulmurdu? Bunun cavabı bəsitdir. Çünki bu adın hörməti-izzəti hər zaman ən yüksək mövqelərdə dayanıb. Bu gün də belədir, sadəcə və sadəcə onu gözdən salan ünsürlər, qələmi şəxsi mənfəətlərinə satıb, haram pula çevirənlər var!

Yeri gəlmişkən, bir müddət əvvəl, həbs edilən reket jurnalistlərin - Surxay Məmmədlinin, Habil Vəliyevin, Fikrət Fərəməzoğlunun, onlardan daha öncə həbs edilən Nazim Quliyevin dərc etdirdikləri qəzetləri nəzərdən keçirdikdə, daha hansı şantaj və böhtanları görmürük? Üstəlik, ətraflarında saxladıqları pozğun qadınlara belə (!) vəsiqə verib, onların vasitəsi ilə yüksək vəzifəli insanlara, iş adamlarına qarayaxmalar, şər-böhtan atmaları, gizli videoçəkilişlər, montajlar edərək, ailələrinə göndərmələri - bütün bunlar reketçiliyin görünən tərəfləri kimi qeyd oluna bilər. Biz, hələ görünməyən tərəflərini demirik...

Artıq zamanı yetişib və bu "qara yara" ilə barışmaz mübarizə aparmağın vaxtıdır. Nə qədər ki, gec deyil, ölkəmizin milli mətbuat səhifəsini bu cür ünsürlərdən təmizləməyin vaxtı çatıb. Hər halda, barədə konkret ölçülərin götürülməsi vacibliyi ilə ortadadır. Əks halda, "demədi" deməyin...

# Reket jurnalistlərə qarşı mübarizə gücləndirilməlidir

*Baş redaktorlar problemin köklü həlli üçün qanunvericilikdə ciddi dəyişikliklərin edilməsinə zərurət yarandığını bildirdilər*

***Mətbuat Şurası tərəfindən reketçiliyə qarşı mübarizə tədbirlərinin gücləndirilməsinə baxmayaraq, hələ də, bu istiqamətdə problemlər qalmaqdadır. Mətbuatın qara yarası hesab olunan reket jurnalistlər şantaj və böhtan yolu seçməklə müəssisə, təşkilat rəhbərlərindən pul almağa çalışır, xalqını sevən və dövlətinə bağlı olan insanları gözdən salmaq üçün dezinformasiya xarakterli məlumatlar yayırlar. Bununla da, medianın adını ləkələyir və jurnalist adına xələl gətirirlər. Söhbət etdiyimiz qəzet baş redaktorları problemin köklü həlli üçün qanunvericilikdə ciddi dəyişikliklərin edilməsinə zərurət yarandığını bildirdilər.***

"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev:
**"Yaramaz fəaliyyətlə məşğul olan jurnalistlərin adları yazılmış qara siyahı ortadadır"**



- 2008-ci ildən indiyə qədər Mətbuat Şurasının xətti ilə reket jurnalistikaya qarşı mübarizə fasiləsiz və sistemli şəkildə aparılmaqdadır. Ortada böyük nəticələrimiz var. Mətbuat Şurasının rəhbərliyi, İdarə Heyəti şəxsən onun sədri, müvafiq komissiyalar, reket jurnalistika ilə mübarizə komissiyası, şikayətlər üzrə komissiyalar və s. kimi strukturların xətti ilə ardıcıl şəkildə bu istiqamətdə iş aparılır. Bizim artıq siyahımız var. Yəni yaramaz fəaliyyətlə məşğul olan jurnalistlərin adları yazılmış qara siyahı ortadadır. Mütəmadi olaraq, biz bu siyahını ictimai rəyə, dövlət orqanlarına, müəyyən özəl şirkətlərə, ümumiyyətlə, reket jurnalistlərinin hədəfi ola biləcək bütün subyektlərə çatdırırıq. Onlar da bilsinlər ki, ölkənin ciddi strukturları və media orqanları ilə reket fəaliyyəti ilə məşğul olan saytlar, portallar, qəzetlər arasında böyük fərqlər var və bunu fərqləndirə bilsinlər. Reketçiliyə qarşı mübarizə tədbirləri nəticəsində böyük uğurlarımız olsa da, təəssüflər olsun ki, reket jurnalistikasının kökünü tam şəkildə kəsmək, hələ ki, mümkün olmayıb. Hətta bəzi hallarda onların yenidən baş qaldırması və hətta Mətbuat Şurasının İdarə Heyətinin bu peşəkar və obyektiv fəaliyyətinə çamur yaxmaq kimi cəhdləri də olur. Ona görə də, düşünürəm ki, artıq dövlət və hüquq-mühafizə orqanları müstəvisində bu məsələ ilə bağlı müəyyən addımların atılmasına ehtiyac var. Birincisi, qanunverîciliкdə olan boşluqlar aradan qaldırılmalı və daha sərt nəzarət mexanizmləri tətbiq olunmalıdır. Daha sonra isə, bu istiqamətdə real addımlar atılmalıdır. Çünki reket jurnalistika ciddi jurnalistikanın adını batırır, ölkənin ciddi media sektorunun adına xələl gətirir, ictimai mühitdə sabitliyi pozan bir element kimi görsənir, ictimaiyyətin narazılığına səbəb olur və ölkədə dövlət - media münasibətlərinin normal bir müstəvidə formalaşması prosesinə maneçilik törədir. Buna görə də, bu istiqamətdə ciddi ölçülər götürülməlidir.

"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli:
**"Reketçilik, onun hansı vasitələrlə həyata keçirilməsindən asılı olmayaraq, cinayət əməlidir"**



- Reketçiliyin qarşısının alınması istiqamətində tədbirlərin həyata keçirilməsi üçün heç bir problem yoxdur. Yəni faktiki olaraq, hüquqi müstəvidə reketçiliklə məşğul olanlara qarşı müvafiq addımların atılması nəzərdə tutulub. Reketçilik, onun hansı vasitələrlə həyata keçirilməsindən asılı olmayaraq cinayət əməlidir. Sadəcə olaraq, söhbət mətbuat vasitələrindəki neqativ hallardan gedir. Həmin şəxslər ki, var o şəxslər jurnalist deyillər, reketlərdir. Demək olar ki, onlar başqa bir vasitə də tapıb, öz reketçiliklərini edə bilərlər. Amma indiki şəraitdə həmin şəxslər jurnalistikanı özləri üçün vasitə seçiblər. Bu baxımdan da, həmin şəxslərə qarşı addımların atılması üçün Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cəzalar mövcuddur. Belə şəxslərə qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi üçün həm vətəndaşlar, həm də onların şantajına tuş gələn insanlar bu məsələdə fəal olmalıdırlar. Bununla bağlı müvafiq qurumlara müraciət olunmalıdır ki, onlar da reketlərə qarşı sərt tədbirlər həyata keçirsinlər. Yalnız bu halda ciddi nəticələrə nail olmaq olar.

"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev:
**"Reket jurnalistika ilə bağlı çox ciddi problemlər var"**



- Reket jurnalistika ilə bağlı çox ciddi problemlər var. Uzun illərdir ki, reket jurnalistika ilə bağlı müzakirələr gedir. Mətbuat Şurası da bununla bağlı qara siyahı hazırlamışdır və o qara siyahı bir az effekt verirdi. Demək olar ki, son illər reketlər internet mediaya transfer olunublar. Reketçiliklə məşğul olanların sayəsində çox acınacaqlı bir durum yaranıb. Demək olar ki, reketçiliklə məşğul olan insanların fəaliyyəti Azərbaycan mətbuatını gözdən salır. Jurnalistlərin cəmiyyətdəki nüfuzunu aşağılayır. Jurnalistikadan öz şəxsi maraqları üçün istifadə edən bu kriminal ünsürlərə qarşı mübarizə gücləndirilməlidir. Son vaxtlar, Mətbuat Şurası bir neçə reket sayıtını qara siyahıya salıb. Amma biz bilirik ki, bu qara siyahı ictimai qınaq mahiyyəti daşıyır. Reket jurnalistika ilə bağlı atılacaq addımlar bir hüquqi əsas vermir. Amma ümumilikdə, Mətbuat Şurasının başlatdığı bu iş digər qurumlar üçün də bir siqnal olmalıdır. Bu kriminallaşmış mətbuatdan ancaq maddi maraq naminə istifadə edən, insanların şəxsi həyatına müdaxilə edən, heç bir peşə etikası kodeksini nəzərə almayan saytlara qarşı ciddi tədbirlər görülməlidir. Hazırkı real duruma gəldikdə isə, bu reket sayt sahibləri heç bir hüquqi məsuliyyət daşımadan və cəmiyyət qarşısında heç bir məsuliyyət hiss keçirmədən, qara işlərlə məşğuldurlar. Onlar insanları, ayrı-ayrı şəxsləri, nüfuzlu şirkətləri və dövlət təşkilatlarını açıq şəkildə şantaj edir və öz məqsədlərinə nail olmaq üçün ən çirkin üsullara əl atırlar. Bu da, ümumilikdə, belə bir görüntü yaradır ki, Azərbaycan jurnalistikası elə bunlardan ibarətdir. Demək olar ki, böyük şirkətlər və nazirliklər ciddi ictimai rəyə təsir edən media ilə işlərini bir kənara qoyub, bunlarla mübarizə aparmaq məcburiyyətindədirlər. Bu saytların əksəriyyətinin hüquqi ünvanı və redaksiyası yoxdur. Bir sözlə, bu kriminal ünsürlərə qarşı kompleks tədbirlər görülməldir. Mətbuat Şurasının reket jurnalistikası ilə bağlı başlatdığı iş alqışlanmalıdır. Müəyyən dövlət strukturları, təhlükəsizlik orqanları, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti bunlarla mübarizə işinə cəlb olunmalıdırlar. Jurnalistikanın adından istifadə edən bu adamlar görməlidirlər ki, bunların hərəkətləri cəzasız qalmayacaq.

**GÜLYANƏ**



## Bir qrup azərbaycanlı gənc Ermənistanın Tbilisidəki səfirliyi qarşısında etiraz aksiyası keçirib

Bir qrup azərbaycanlı gənc Ermənistanın Tbilisidəki səfirliyi qarşısında etiraz aksiyası keçirib. AZƏRTAC xəbər verir ki, əllərində Azərbaycan bayrağını, "Dilqəm Əsgərova və Şahbaz Quliyevə azadlıq", "Əsirlərimizə azadlıq", "Torpaqlarımıza azadlıq", "Ermənistan işğalçıdır", "Sarkisyan terrorçudur" yazılmış plakatları tutmuş aksiya iştirakçıları Ermənistanda qanunsuz olaraq həbsdə saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azadlığa buraxılmasını, Ermənistandan işğalçılıq siyasətinə son qoymağı, işğal altında olan torpaqlarımızdan geri çəkilməyi tələb ediblər.

Aksiyanın əsas təşkilatçılarından biri, Bavariyadakı Azərbaycan Diaspor Mərkəzinin rəhbəri Akif Məmmədov deyib ki, əsas məqsəd işğal altındakı Azərbaycan torpaqlarının azad edilməsinə, qanunsuz həbsdə olan soydaşlarımızın azadlığa buraxılmasına nail olmaq, dünya ictimaiyyətinin diqqətini Ermənistanın işğalçılıq siyasətinə yönəltməkdir. Onun sözlərinə görə, bu cür tədbirlər davamlı olacaq, başqa şəhərlərdə də təşkil ediləcək.

Ermənistanda həbsdə olan Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov deyib ki, atasının səhhətində problemlər yaranıb. Lakin Ermənistan rəhbərliyi bunu nəzərə almır. "Biz beynəlxalq təşkilatlara müraciət etmişik. Biz atamın, Şahbaz Quliyevin və Ermənistanda həbsdə, girovluqda olan digər azərbaycanlıların azad olunması tələbi ilə aksiyaları davam etdirəcəyik", - deyə o vurğulayıb.

Aksiya dinc şəraitdə keçib. Tbilisinin Marcanaşvili metro stansiyasının qarşısından başlayan aksiya Ermənistan səfirliyinin binasının qarşısında başa çatıb.

## İqtisadiyyat naziri Biləsuvarda vətəndaşları qəbul edəcək

Noyabrın 17-də İqtisadiyyat naziri Şahin Mustafayev Biləsuvarda Salyan, Neftçala, Biləsuvar və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edəcək. Vətəndaşların qəbulu saat 10:00-dan etibarən YAP Biləsuvar rayon təşkilatının inzibati binasında (ünvan: Mübariz İbrahimov küçəsi, 221) keçiriləcək. Nazirlikdən SİA-ya verilən məlumata görə, qəbula gəlmək istəyən vətəndaşlar qeydiyyat üçün İqtisadiyyat Nazirliyinin office@economy.gov.az elektron poçt ünvanı və 493-14-56, 493-88-67 (21-05), (055) 257-60-90 nömrəli telefonlar (əlaqələndirici şəxs Elmar Hacıyev), Nazirliyin 195-2 Çağrı Mərkəzi, həmçinin Nazirliyin Aran regional bölməsi (əlaqələndirici şəxs Elbrus Hüseynov, əlaqə telefonu: (022) 337-82-81, (055) 206-88-52, elektron poçt ünvanı: elbrus.huseynov@economy.gov.az) vasitəsilə müraciət edə bilərlər. Bununla yanaşı, vətəndaşlar İqtisadiyyat Nazirliyinin internet və "Facebook" səhifələrində xüsusi olaraq yaradılmış "İqtisadiyyat nazirinin şəhər və rayonlarda keçirilən qəbulu üçün müraciət" bölmələri vasitəsilə də qəbula yazıla bilərlər.

## İpoteka Fondu indiyədək 20 min 667 ipoteka krediti verib

"Azərbaycan İpoteka Fondu" ASC-nin (AİF) xətti ilə indiyədək verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.

AİF-dən AZƏRTAC-a bildiriblər ki, fondun xətti ilə 20 min 667 ipoteka krediti verilib. "Azərbaycan İpoteka Fondu"nun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 900 milyon 105 min 152 manatdan çoxdur.

# YAP-ın 25 illik yubileyi münasibəti ilə İmişlidə tədbir keçirilib






***Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü ilə bağlı dünən YAP İmişli rayon təşkilatının yığıncağı keçirilib. Öncə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq, onun əbədi xatirəsini böyük ehtiramla yad ediblər. Daha sonra YAP-ın yaranması barədə filmə baxılıb.***

YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev yığıncaq iştirakçılarını YAP-ın 25 illik yubileyi və 17 noyabr Milli Dirçəliş günü münasibətilə təbrik edib. Səfa Ağayev çıxışında qeyd etdi ki, ilk dəfə 1992-ci il noyabrın 21-də qədim Naxçıvan torpağında 20-ci əsrin görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan Yeni Azərbaycan Partiyası məhz dahi öndərimizin müdrik və uzaqgörən siyasəti, yüksək təşkilatçılıq fəaliyyəti sayəsində çətin sınaqlara mərdliklə sinə gərərək şərəfli mübarizə yolu keçmişdir. Bu illər ərzində Yeni Azərbaycan Partiyası demokratik və hüquqi cəmiyyət quruculuğu sayəsində böyük uğurlar əldə etmiş, respublikamızın içtimai-siyasi həyatında hakim və aparıcı qüvvəyə çevrilmişdir.

YAP İmişli rayon təşkilatı Qadınlar Şurasının sədri Validə Zülfiqarova, İmişli şəhər 1 saylı orta məktəbin müəllimi Raci Ələsgərli, ərazi təşkilat sədri Rafael Məmmədov çıxışlarında qeyd etdilər ki, YAP qısa vaxt ərzində təşkilatlanaraq ölkənin ən güclü siyasi partiyasına çevrildi. Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantına çevrilərək tariximizə mütəşəkkil və intellektual bir siyasi güc mərkəzi kimi daxil oldu. Yeni Azərbaycan Partiyası yarandığı gündən etibarən Ümummilli liderimizin bizə qoyub getdiyi milli inkişaf strategiyasının prinsiplərini əsas tutaraq öz fəaliyyətini davam etdirmiş və bugünkü günümüzdə də davam etdirməkdədir.

YAP İmişli rayon təşkilatı Gənclər Birliyinin idarə heyətinin üzvü Zamin Zeynalov çıxışında vurğuladi ki, Ümummilli liderin 1993-cü ildə hakimiyyətə möhtəşəm qayıdışı ölkəmizi, xalqımızı, dövlətçiliyimizi, müstəqilliyimizi qarşılaşdığı ağır günlərdən qurtardı. Gənc nəslin inkişafı, tərəqqisi təbii ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu gənclər siyasətinin nəticəsidir. Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevin apardığı mütərəqqi siyasət bu gün bizim hər birimizin partiya həyatında daha fəal olmağımız üçün geniş şərait yaradır. Gənclər də Yeni Azərbaycan Partiyasının sadiq üzvləri kimi ölkəmizin inkişafında öz töhfələrini verməlidir. Bu gün rayon təşkilatında gənclərin sayı artmaqda davam edir. Hal-hazırda YAP İmişli rayon təşkilatında gənclərin sayı 2703 nəfərdir. Gənclərin partiyaya kütləvi axınının davamlı şəkil alması bilavasitə Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm Prezidentimiz cənab İlham Əliyevə olan sarsılmaz inamın bariz nəticəsidir.

İmişli rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən tarixin onun üzərinə qoyduğu missiyanı ləyaqətlə yerinə yetirdiyini ardıcıl olaraq sübut edir. Son illər bütün bölgələr inkişaf edir. Bu mənada İmişli rayonunda yüksək səviyyədə həyata keçirilən abadlıq və quruculuq işləri bundan sonra da davamlı olacaq. Daha sonra YAP sıralarına qəbul edilmiş partiya üzvlərinə vəsiqələr təqdim edilib.

**RƏFİQƏ**

## Azərbaycanda əhalinin sayı artıb



İlin əvvəlindən ölkə əhalisinin sayı 65 292 nəfər və ya 0,7% artaraq 2017-ci il oktyabr ayının 1-i vəziyyətinə 9 milyon 875 min 273 nəfərə çatıb. SİA-nın Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bir kvadrat kilometrə düşən əhalinin sıxlığı 114 nəfər olub. Məlumata görə, əhalinin ümumi sayının 53%-ini şəhər, 47%-ini kənd sakinləri, 49,9%-ini kişilər, 50,1%-ini isə qadınlar təşkil edir. Son məlumata görə, hazırda hər 1000 kişiyə 1006 qadın düşür. Qeyd edək ki, ötən ay üzrə açıqlanan statistik göstəricidə qeyd edilmişdi ki, Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 57269 nəfər və ya 0,6 faiz artaraq 2017-ci il sentyabr ayının 1-i vəziyyətinə 9 867 250 nəfərə çatıb.

## "Dağlıq Qarabağ münaqişəsinin həlli Rusiya üçün prioritetdir"



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli mövzusu Rusiya üçün prioritetdir. SİA-nın məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinq zamanı deyib.

## Azərbaycana narkotik vasitələrin qaçaqmal yolu ilə gətirilməsinin qarşısı alınıb





Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri uğurla davam etdirilir. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, 2017-ci il noyabrın 13-də DSX əməkdaşları tərəfindən qanunsuz olaraq Xəzər dənizi vasitəsilə ölkə ərazisinə narkotik vasitələrin qaçaqmal yolu ilə gətirilməsinin qarşısı alınıb. Həmin tarixdə Astara rayonu istiqamətində xidmət aparan Dövlət Sərhəd Xidmətinin sərhəd gözətçi gəmisi tərəfindən balıqçı qayığındakı şəxslərin şübhəli hərəkətləri müşahidə olunub və üzmə vasitəsinin saxlanılması üzrə tədbirlər görülüb. Sərhədçilərin "Dayan" əmrinə tabe olmayan balıqçı qayığı təqib edilərək saxlanılıb, qayıqdakı şəxslərin Astara rayonu Şahağacı kənd sakinləri 1969-cu il təvəllüdlü Mirzəyev Raqib Məzahir oğlu və 1978-ci il təvəllüdlü Əliyev Samid Pərviz oğlu olmaları müəyyənləşdirilib.

Qayığa baxış zamanı ümumi çəkisi 3 kiloqram 720 qram olan bağlamanın içərisində 2 kiloqram tiryək, 1 kiloqram 510 qram heroin və 290 ədəd üzərində "Metadone-40" yazılmış dərman preparatları aşkar olunub. Fakt üzrə əməliyyat və istintaq tədbirləri davam etdirilir.



**İLHAM**

## Kimlərə qaldı dünya

***Dünya yaranandan bu günə qədər insan olan məxluq daha çox varlanmağa, mənsəb sahibi olmağa, torpaqlar və ərazilər zəbt etməyə çalışıb. Bunun üçün birinin haqqını yeyib, digərlərinin hüquqlarını tapdalayıb, başqasını isə müxtəlif vasitə və üsullardan istifadə etməklə sıradan çıxarmağa can atır. Ən maraqlısı və diqqətçəkən odur ki, bu istəklərə nail olmaq yolunda qarşıya çıxan maneələrin ən sərt formada aradan qaldırılmasına cəhdlər göstərilib.***

Bu maneənin önündə qohum-qardaş, dost və tanış olsa belə, sıradan çıxarılmasında tərəddüdlər olmayıb. Çarpışmalar, çəkişmələr xırda insidentlərlə müşayiət olunsa da, sonradan lokal toqquşmalara, hətta müharibələrə gətirib çıxarsa da, Adəm övladı öz prinsipiallığından dönməyib. Onun üçün fərq etməyib, kim öləcək, kim qalacaq və ya şəhərlər, ölkələr viran olaraq dağılacaq. Əsas o olacaq ki, xəyallarında canlandırdığı, düşüncəsində formalaşdırdığı istək və arzularını reallaşdıracaq. Bəlkə də, fərdi mübarizələrə və xırda çəkişmələrə göz yummaq olar. Amma şəxsi maraq və mənafeyi naminə böyük dağıntılara və qırğınlara səbəb ola biləcək hadisələr yaşananda dəhşətə gəlirsən. Az qala var gücünlə qışqırıb demək istəyirsən: niyə və nə üçün? Alfred Nobelin ibrətamiz bir kəlamı var: "Müharibə - dəhşətlərin dəhşətidir. Bu, ən qorxulu cinayətdir. Elə dağıdıcı gücə malik maddə və cihaz ixtira etmək istərdim ki, bütün müharibələr qeyri-mümkün olsun".

Böyük alimi başa düşmək olar, amma çox təəssüflər ki, onun böyük arzuları yuxarıda qeyd etdiyim mənsəbpərəst insanların baxışları və yanaşmaları səbəbindən, reallaşması qeyri-mümkündür. Çünki insan görünüş və formaca dəyişə bilər. Amma onun daxili aləminin fərqli bir forma ala biləcəyi mümkünsüzdür. Bir də görürsən ki, insan talan edir, dağıdır və israfçılığa yol verir. Sual edəndə ki, niyə belə edirsən? Cavabı qısa olur, - ömür qısadır, ye-iç, kef elə. Bəzən də "beş günlük dünyadır, mənə qalan yeyib-içmək, var-dövlət yığmaq qalacaq", - deyə bildirir. Ağrılı məqam odur ki, bu nadanların düşüncələrinə uyğun şeirlər də yazılır, meyxanalar da qoşulur. Amma dərk etmək istəmirlər ki, ömür bəxş edilibsə, onun qədrini bilmək lazımdır. Hər dəqiqəni, hər saatı, hər günün cəmiyyətə, insanlara xeyir verə biləcək bir formada keçirməyə çalışmaq lazımdır. O dar düşüncəli insanların fikri ilə razılaşıb, onlar kimi hərəkət edilsəydi, onda görün, nə baş verərdi? A.Nobel, Nyuton, Eynşteyn, Eyfel, Nizami Gəncəvi, Nəsimi, Mirzə Ələkbər Sabir, Lütfi Zadə və bu kimi digər şair, yazıçı, memar və rəssam işlərini yarımçıq qoysaydılar və ya həyata keçirdikləri işləri, ümumiyyətlə etməsəydilər, onda dünyamızı hansı formada təsəvvür etmək olardı. Təbii ki, zəif, yazıq, gücsüz və digər aşağılayıcı və xoş duyğulardan uzaq bir formada. Ona görə də, dünyaya gəlmisənsə, buna şükür et. Həyatını sağlam və cəmiyyətə, insanlara xeyir verəcək formada keçir. Həm də elə yaşa ki, dünyanı dəyişdikdən sonra dodaqlarda "bir yaramaz da cəmiyyətdən rədd oldu getdi" kimi sözlər pıçıldamasın. Deyir bir gün bir nəfər uca peyğəmbərimiz Məhəmməd in(ə.s.) yanına gəlib - etdiyim günahlarımın cəzasını bu dünyada çəkmək istəyirəm, mümkündürmü? - deyə sual edir. Peyğəmbər isə - elə yaşa ki, sanki heç zaman ölməyəcəksən, həm də elə yaşa ki, sanki bu dəqiqə öləcəksən, - deyə cavab verir.

Məncə, artıq şərhə ehtiyac yoxdur.

# Yeni Azərbaycan Partiyasının şərəf tarixi var

## *Kürdəmirdə Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi ilə bağlı tədbir keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyasının Kürdəmir rayon təşkilatı partiyanın yaranmasının 25 illik yubileyi münasibətilə tədbir keçirmişdir. Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev Parkına gələrək Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş və önünə gül dəstələri düzmüşlər.***




Tədbiri giriş sözü ilə açan YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli Yeni Azərbaycan Partiyasının yarandığı tarixi şəraitdən, keçdiyi şərəfli yoldan, partiyanın yaradıcısı Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından və partiyamızın cəmiyyətdə



aparıcı rolundan danışmışdır: "Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda - son dərəcə mürəkkəb, ağır dövrdə xalqın təkidli tələbi ilə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürməsəydi, bugünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən və regionun lider dövlətinə çevrilən Azərbaycandan danışmaq mümkün olmazdı. Olduqca çətin bir şəraitdə yaranmış bu partiyanın çox qısa müddətdə əsl siyasi qüvvə kimi formalaşması, minlərlə əqidəli insanın onun sıralarında birləşməsi bu gün bir daha Ulu Öndər Heydər Əliyev fenomeni və dühasının qüdrətindən xəbər verir. Bu gün müstəqil Azərbaycan Respublikası, möhkəm özülə söykənən dövlətçiliyimiz ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə uğurlu gələcəyə doğru inamla addımlayır".

Tədbirdə YAP-ın veteran üzvləri Qasım Hüseynov, Mehrab Abdurahmanov, rayon təşkilatı qadınlar şurasının sədri Sevda Hacıyeva, rayon təşkilatının idarə heyətinin üzvü Vaqif Alıyev, rayon təşkilatının şura üzvü Məhəmməd Heydərli çıxış edərək, Yeni Azərbaycan Partiyasının Azərbaycan dövlətçiliyinin inkişafında xidmətlərindən bəhs edib, Azərbaycanın 25 il ərzində keçdiyi yolun Yeni Azərbaycan Partiyasının şərəf tarixi və şərəf salnaməsi olduğunu bildirmişlər. Tədbirdə Kürdəmir rayon icra hakmiyyətinin başçısı Ceyhun Cəfərov çıxış edərək bildirmişdir ki, müstəqilliyimizin ilk vaxtlarında ölkədə yaranan ictimai-siyasi və hərbi durumda Azərbaycanın müstəqilliyini qorumaq və dövlət yaratmaq üçün siyasi partiya lazım idi: "Belə taleyüklü, mövcudluğumuz sual altında olduğu bir vaxtda siyasi partiyanın yaranması və formalaşması üçün, məhz Ulu Öndər Heydər Əliyev böyüklüyü və dahiliyi lazım idi. Ulu Öndərin rəhbərliyi ilə yaranan Yeni Azərbaycan Partiyası qısa müddətdə cəmiyyətdə öz layiqli yerini tutdu və cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrildi. Bu gün Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan regionun lider dövlətinə çevrilib".

Tədbirdə YAP sıralarına yeni qəbul olunmuş bir qrup gəncə partiya üzvlük vəsiqələri təqdim olunmuşdur. Tədbirin yekununda rayonun ictimai-siyasi həyatında fərqlənən partiyanın bir sıra fəal üzvlərinə fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunmuşdur.

**RƏFİQƏ**

## ATU-da İctimai Nəzarət və Məsləhət Şurasının iclası keçirildi

***Noyabrın 16-da Azərbaycan Tibb Universitetinin rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının iclası keçirildi.***

Əvvəlcə tədbir iştirakçıları ATU-da İNMŞ-nin fəaliyyəti üçün yaradılmış iş otağı ilə tanış oldular. Bildirildi ki, burada şura üzvlərinin fəaliyyəti üçün yüksək səviyyəli şərait yaradılıb.

Daha sonra iclası giriş sözü ilə açan İNMŞ-nin sədri, Milli Məclisin deputatı İlham Məmmədov bildirdi ki, şura ATU-nun Böyük Elmi Şurasının 2017-ci il 30 may tarixli



qərarı ilə yaradılıb: "Şuranın 9 nəfər üzvü var. İctimai Nəzarət və Məsləhət Şurası Azərbaycan Tibb Universitetində elmin və təhsilin inkişafında innovativ təkliflərin irəli sürülməsi və onların həyata keçirilməsində yaxından iştirak edir. Fəaliyyətin ictimai əhəmiyyətini artırmaq məqsədilə ATU-nun tədris binalarında üzərində qaynar xətt nömrələri yazılan rəy qutuları qoyulacaq. Qaynar xətt günün bütün saatlarında zəngləri qəbul edəcək".

Sonra İNMŞ-in üzvləri "İki sahil" qəzetinin baş redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü, Əməkdar jurnalist Vüqar Rəhimzadə, ATU-nun "Əczaçılığın texnologiyası və idarəçiliyi" kafedrasının baş müəllimi Aidə Bəndəliyeva, İctimai Televiziya və Radio Yayımları" şirkətinin "İctimai-siyasi proqramlar" Departamentinin direktoru Anar Yusifzadə və digərləri təkliflərini irəli sürdülər.

Daha sonra iclasda ATU-nun 2017-2018-ci tədris ili üçün fəaliyyət planı müzakirə olundu və təsdiq edildi.

ATU-nun "Əczaçılığın texnologiyası və idarəçiliyi" kafedrasının baş müəllimi Aidə Bəndəliyeva universitetin fəaliyyəti və strukturu barədə geniş məlumat verdi: "Azərbaycan Tibb Universitetinin 6 tədris korpusu və 6 yataqxanası var. Universitetdə 6 fakültə fəaliyyət göstərir. ATU-nun hazırda 3500 nəfər əməkdaşı var. Onlardan min nəfərə qədəri pedaqoji heyətə daxildir. Pedaqoji heyətin 200 nəfərə qədəri professor, 400 nəfərdən çoxu isə dosentdir".

Sonda qərara alındı ki, İNMŞ-nin qış imtahan sessiyasına qədər növbəti iclası keçirilsin.

***Cavid ƏKBƏROV, "İki sahil"***

# Suraxanı rayonunda "Ölkəmizi tanıyaq" tur-aksiya iştirakçıları ilə görüş keçirilib

***Suraxanı rayonu Heydər Əliyev Mərkəzində "Ölkəmizi tanıyaq" tur-aksiya iştirakçıları ilə görüş keçirilib. Tədbir iştirakçıları əvvəlcə, Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət edib Suraxanı rayonu Heydər Əliyev Mərkəzi ilə tanış olublar, Ulu Öndərin zəngin irsini, həyat və fəaliyyətinin müxtəlif dövrlərinin öyrənilməsi məqsədi ilə mərkəzin sifarişi ilə hazırlanmış "Xilaskar" filmini izləyiblər. Mərkəzin Elektron Lektoriya zalında Suraxanı məktəblilərinin "Ölkəmizi tanıyaq" tur-aksiyalarda iştiraklarından bəhs edən videoçarx nümayiş olunub.***



Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbiri giriş sözü ilə açan Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov bildirib ki, Möhtərəm Prezidentimiz İlham Əliyevin tövsiyəsinə əsasən, Azərbaycan Respublikası Prezident Administrasiyasının təşkilatçılığı ilə 2014-cü il avqustun 1-dən şəhər və rayon icra hakimiyyətləri tərəfindən 9-11-ci sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında təşkil olunan maarifləndirici tur-aksiyaların keçirilməsi gözəl ənənə halını almışdır: "Ötən 4 il ərzində 7 istiqamət üzrə 7 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 13 min 648 nəfər iştirak edib. Bu il noyabr ayının 11-14 və 16-19 tarixlərini əhatə edən növbəti 8-ci tur-aksiyada isə 4 istiqamət üzrə 78 şəhər və rayondan 3213 nəfər 9-11-ci sinif şagirdi iştirak edir. Bununla da, "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı, ümumilikdə, 17 minə çatır. Onlardan 299 nəfəri Suraxanı məktəbliləridir. Suraxanı rayonunun 40 nümunəvi şagirdi bu tur-aksiyada 16-19 noyabr tarixlərində Gəncə-Şəmkir-Göygöl istiqamətində səfər edəcəklər. Gənclərin hərbi vətənpərvərlik ruhunda yetişməsi dövlət siyasətinin əsasını təşkil edir. 2016-cı ilin aprel döyüşlərində biz bunun şahidi olduq. Həmin döyüşlərdə Azərbaycan Ordusunun qazandığı tarixi qələbə "Böyük Qayıdışın" ilk müjdəsi olan Cocuq Mərcanlı kəndinin yenidən qurulmasına böyük zəmin yaratdı. Biz artıq işğal altında olan ərazilərimizə qayıdırıq. Bütün bunlarla hər birimiz qürur duyuruq".

Tədbirdə Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, 232 nömrəli tam orta məktəbin direktoru Məhluqə Əzizova, ötən ildəki tur-aksiyanın iştirakçısı, 85 nömrəli məktəbin şagirdi Aydan Şərifzadə, Bülbülə qəsəbəsi Ağsaqqallar Şurasının sədri Mirzəağa Quliyev, valideyn Vüsalə Vəliyeva, tur-aksiya iştirakçısı 281 nömrəli məktəbin şagirdi Şəbnəm Bağırova və digərləri çıxış edərək, gənc nəslin tərbiyəsinə, onların savadlı, vətənpərvər böyüməsinə və fiziki inkişafına göstərdiyi diqqətə, qayğıya və şagirdlər üçün yaradılan bu şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

**ZÜMRÜD**

# Qəzet və internet medianın reklam əldə etməsi reklam və PR mütəxəssislərinin fəaliyyəti ilə bağlıdır

***İstehsalçıların təşviqat xarakterli daha dolğun məlumatlarının istehlakçılara çatdırılması üçün ən əlverişli vasitə reklamdır. Doğrudur, nəqliyyat vasitələrindən istifadə etməklə, birbaşa poçt vasitəsilə, elektron poçt vasitəsilə, küçə reklamları və s. kimi reklamın müxtəlif yerləşdirmə formaları mövcuddur, lakin kütləvi informasiya vasitələrinin bu xüsusda rolu danılmazdır. Daha doğrusu, KİV digər vasitələrdən daha böyük auditoriyaya, ələlxüsus, hədəf auditoriyasına malik olduğu üçün və daha müfəssəl məlumat çatdırma xüsusiyyətlərinə görə üstün hesab olunur. Təəssüflər olsun ki, qəzetlərə reklam verilməsinə maraq azalır və bu işin təşkilində kifayət qədər zəiflik özünü göstərir. Görünür, şirkətlər təklif etdikləri məhsul və xidmətlər üçün ya reklama ehtiyac duymur, yaxud da qəzetləri reklam üçün münasib hesab etmirlər.***

Məsələ burasındadır ki, hazırda Azərbaycanın reklam bazarında sivil fəaliyyət mövcud deyil. Çünki hər hansı bir şirkət bu və ya digər məhsulun istehsalı və ya xidmət göstərməsi ilə yanaşı, həm də özünün reklam şirkətini yaradırsa, bu zaman reklam strategiyasından söhbət gedə bilməz. Yəni daha dəqiq desək, şirkətlərin 80 faizi özü istehsal edir, özü reklam edir, özü də satırsa, bu reklam bazarının yanlış formalaşmasından xəbər verir. Ona görə də, reklam bazarının inkişafı üçün rəqabət mühitinin yaradılmasına ehtiyac duyulur və problemlərə son qoymaq üçün bu iş reklam hazırlayan agentliklərə və reklam yerləşdirilməsi ilə məşğul olan şirkətlərə həvalə edilməlidir.

Reklam bazarındakı hazırkı vəziyyət mətbuata da təsirsiz ötüşmür və bu gün ölkənin əksər ciddi qəzetləri reklam tapmaqda çətinlik çəkir. Qəzetlərin reklam agentləri şirkətlərdən reklam almağa çalışsalar da, nəticəsiz qalır və bu da, öz növbəsində, qurumun büdcəsinə və maliyyə durumuna öz mənfi təsirini göstərir.

Azad iqtisadiyyata malik olan ölkələrdə mətbuatın əsas gəlir mənbəyi reklamlar və nəşrin satışından əldə etdiyi gəlirlər hesab olunur. Belə ölkələrdə qəzetlərin gəlirlərinin 85 faizi reklamlardan, 15 faizi isə nəşrin satışının reallaşdırılmasından asılı olur. Azərbaycanda isə, qəzetlər ən yaxşı halda, böyük şirkətlərin bayram təbriklərinə ümid edirlər. Bu isə, o deməkdir ki, il ərzində bir neçə dəfə bayram təbriklərini dərc etməklə, qəzet reklamdan gələn gəlirlərini bitmiş hesab etmək məcburiyyətindədir.

Nəzərə alsaq ki, ölkədə yüksək tempdə iqtisadi inkişaf gedir, eyni zamanda əvvəlki illərlə müqaisədə reklamın qiyməti də 30% ucuzlaşıb, bu halda, reklam olunan məhsulların reklamının da həcmi artmalıdır. Amma reklam sahəsində olan statistik göstəricilər, uzun illərdir ki, dəyişməz vəziyyətdə qalırsa, deməli, reklam bazarında heç bir inkişaf yoxdur. Bu isə, o demək deyil ki, ya reklam olunacaq məhsul əldə edilmir, ya da məhsul üçün reklama ehtiyac duyulmur. Digər tərəfdən də, maliyyə çətinliyi ilə üzləşən əksər şirkətlər reklam xərclərini əhəmiyyətli dərəcədə aşağı saldıqları üçün, reklam yerləşdirmək istəyənlərin sayı da kəskin azalıb.

Ölkəmizdə hər hansı bir siyasi partiya və ya təşkilatın maliyyə hesabına nəşr olunan qəzetlər də mövcuddur və bu da normal hal kimi qəbul edilir. Lakin maliyyə mənbələri mövcud olmayan qəzetlər isə reklamdan, həmçinin, satışdan gələn gəlirlər hesabına nəşr edilirlər və etiraf etməliyik ki, bu gün birbaşa satışdan və abunə haqqından gələn gəlirlə nəşr olunan qəzet yox dərəcəsindədir.

İnkişaf etmiş ölkələrdə, əsasən, oxucu kütləsi nəzərə alınaraq qəzet reklamları həyata keçirilir, amma çox təəssüf ki, bizim qəzetlər üçün bu, şamil edilə bilmir. Dünyadakı yazılı mətbuata nəzər salsaq, görərik ki, onlar dəyərli qələm sahiblərini belə transfer edərək, hətta yazılarını da mediasatınalma ilə xalqa çatdıraraq, reklam paylarını artırırlar. Bir sözlə, qəzetlər reklam faizini artırmaq üçün bir sıra vasitələrdən istifadə edirlər və prioritet hesab olunan əsas məsələlərdən biri də reklam bazarından daha çox pay qazanmaqdır.

Qəzetlərdə reklam sifarişlərinin artması oxucu kütləsinin say çoxluğundan asılı olmalı və bu çoxluq şirkətlər tərəfindən də nəzərə alınmaqla, reklam sifariş etdikləri zaman, əslində, daha çox oxucu kütləsinə malik olan qəzetlərə müraciət edilməlidir. Çünki nəzərə alınmalıdır ki, çatdırmaq istədikləri təşfiqat xatakterli məlumat daha geniş auditoriyaya hədəflənərsə, reklamın məntiqi nəticəsi hesab olunan müştəri cəlb edilməsi də daha effektiv olar.

Reklamın marketinq mahiyyətini daha dərindən dərk etmək, onun formalarını seçmək, büdcəsini müəyyənləşdirmək, planlaşdırılmasını həyata keçirmək üçün, ilk növbədə, bir sıra suallara, o cümlədən, reklamdan kim istifadə edir, hansı auditoriya əhatə olunmalıdır, reklam yayımı hansı vasitələrlə həyata keçirilməlidir, əsas məqsəd nədən ibarətdir və s. bu kimi suallara cavab verilməli, onun forması müəyyənləşdirilməlidir. Bu sualların həlli, reklamın qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi, ilk növbədə, reklamın marketinq baxımından təsnifləşdirilməsini tələb edir.

Ölkə mətbuatının yeganə problemi onun reklam bazarının tam formalaşmamasıdır. Bu məsələ dəfələrlə media ekspertləri, qəzet rəhbərləri səviyyəsində müzakirə olunsa da, konkret nəticənin şahidi olmuruq. İndiyə qədər səslənən təkliflər bu problemin aradan qaldırılmasına müsbət təsir göstərə bilmir. Bu səbəbdən, ölkə mediasında reklam bazarının durumu qənaətbəxş sayılmır və dünyanın əksər ölkələrində reklam şirkətləri elektron və çap mətbuatı ilə əməkdaşlıqda maraqlı olduğu halda, Azərbaycanda, faktiki olaraq, qəzetlər və saytlar reklam bazarında televiziyalardan geri qalır.



Bəs şirkət məhsullarının reklamı üçün qəzet və portallara niyə müraciət olunmur və hazırkı KİV bolluğunda qəzet və saytların reklam əldə etməsində problem nədən ibarətdir? Əlbəttə, problemin qəzetlərdən asılı olmayan tərəfləri var və bu şirkətlərin kreativlikdən çəkinmələri və reklam strategiyasını düzgün müəyyənləşdirməmələri ilə izah oluna bilər.

Əslində, bu da, öz növbəsində, ölkəmizdə reklam və PR-ın ayrıca ixtisas olaraq tədris edilməməsi ilə əlaqədardır və şirkətlərin ictimai əlaqələr şöbələrində çalışanların əksəriyyəti başqa sahədə ixtisaslaşmış kadrlardır ki, bu da mövcud çatışmazlıqlara yol açır. Daha dəqiq desək, reklam və PR sahəsində bilik və təcrübənin olmaması həm şirkətin düzgün istiqamətdə, yaxud proporsional şəkildə təşviqat kampaniyasının təşkilini, həm də çap mətbuatının reklam qazanmaq imkanlarını məhdudlaşdırır. Belə ki, şirkətlər reklam kampaniyası təşkil etdiyi zaman istər televiziya kanalları, istər küçə reklamları, istərsə də digər reklam vasitəsi olmaqla, yalnız bir istiqamətdə təşviqat tədbirləri aparmaqla kifayətlənməyin yanlış olduğunu nəzərə alaraq, istehlakçı kontingentinin bütün sahələri əhatə edən qruplarına təşviqedici mesaj ünvanlamaq imkanlarından istifadə etməlidirlər. Nəticədə, daha böyük istehlakçı cəlbetmə imkanlarından yararlanmaqla, daha geniş auditoriyaya hədəflə ndiyinin fərqində olmalıdır. Bu sahədə boşluqlar olduğu üçün düzgün gənclərin, eləcə də, şirkətlərin şansı çox böyükdür və problemdən çıxış yolu kimi, ölkəmizdə PR işinin ayrıca ixtisas olaraq tədris olunmasına ehtiyac duyulur.

Bəzən şirkətlər küçə və TV reklamlarına daha çox üstünlük verdiklərini bildirir, qəzet və yaxud da internet-mediada reklam məhsullarının satışına güclü impuls vermədiyi qənaətində olduqlarını nəzərə çatdırırlar. Əlbəttə, bu, onların yanaşmalarıdır və dünya təcrübəsinə müraciət etsək, görürük ki, bu, heç də belə deyil. Məsələn, qonşu Türkiyə təcrübəsinə nəzər salsaq, görərik ki, reklamların böyük əksəriyyəti yazılı və elektron mediada yerləşdirilir. Qəzetlərin səhifələri də çoxdur, rəngli və keyfiyyətlidir, reklam sifariş qiyməti də digərlərindən əhəmiyyətli dərəcədə ucuzdur. Ona görə də, birinci səhifədən sonuncu səhifəyə qədər reklamlar yerləşdirilir və daha az məsrəflərlə daha geniş istehlakçı qrupuna hədəflə ndirilir.

İnternet-mediada da reklam bazarının vəziyyəti qəzetlərə nisbətən ürəkaçandır. Kifayət qədər oxucu toplamış saytlar az-çox reklam əldə edə bilirlər və biz bunu gündəlik izlədiyimiz saytlarda da müşahidə edirik. Reklam verənlər də internet-mediaya maraqlıdırlar və onlar məsələyə biznes maraqları kontekstindən yanaşaraq, dərk edirlər ki, bu gün dünya reklam bazarı internet reklamları üzərində qurulub. Çünki internet bütün maneələri aradan qaldırır və bir ölkədə hazırlanan reklam, nə məsafə, nə də sərhəd tanımır.

İstehsalçılar məhsul və xidmətlər barədə təşviqedici mesajları daha səmərəli, daha aşağı qiymətlərlə və daha geniş auditoriyaya çatdırmaq üçün reklam-yayım vasitələrinin seçimində doğru strategiya hazırlamaq marağında olsalar da, heç də hər zaman seçim uğurlu nəticə vermir. Çünki reklam və təşviqat kampaniyalarının təşkili xüsusi araşdırmalar tələb edir və uğurlu nəticənin əldə edilməsi, bilavasitə reklam və PR sahəsində ixtisaslaşmış kadrlardan və bu kadrların institusional inkişafından asılıdır. Daha doğrusu, şirkətlər, bu sahədə çalışan mütəxəssislərin bilik və bacarığından, təcrübəsindən, istehlakçı bazarını düzgün analizetmə qabiliyyətlərindən istifadə edərək, uğur əldə edə bilər. Nəticədə, reklam-yayım vasitələrinin yalnız bir istiqamətdə seçilməsi, hansısa bir istiqamətə üstünlük verilməsi aradan qaldırılar və hər bir istiqamətdə, eləcə də, qəzet və ümumilikdə, çap mətbuatında reklam sifarişlərinə də müvafiq olaraq pay düşər.

Müsahibimiz, Mətbuat Şurası sədrinin müavini Müşfiq Ələsgərli qəzet və saytların reklam əldə etməsində anlaşılmazlıq və problem olduğunu bildirdi: “Bu məsələ uzun illərdir ki, müzakirə olunur Azərbaycanda. Həqiqətən də, bu sahədə ciddi anlaşılmazlıq və problem var. Çünki bilirsiniz ki, qanuna əsasən, büdcə təşkilatları öz büdcələrinin ən azı bir faizini reklam işlərinə həsr edə bilərlər. Bu baxımdan, Azərbaycanın büdcəsinin 20 milyard olduğunu nəzərə alsaq, ən azı, onun bir faizi, yəni 200 milyondan yuxarı reklam dövriyyəsi olmalıdır Azərbaycanda. Amma heç də bu cür görünmür. Yəni reklam dövriyyəsi bundan qat-qat azdır. Bu baxımdan, “bunlar niyə yoxdur, niyə KİV-ə gəlib çıxmır” məsələsində ciddi problemlər var və bu məsələ dəfələrlə müzakirə olunub. Əsas məsələ odur ki, bizdə məsələni qabardanda, deyirlər ki, büdcə təşkilatları bir tərəfə, həm də özəl müəssisələrin çox böyük çəkisi var və bunlara hökm etmək olmur, onlar özəldirlər, müstəqildirlər və onlar öz bazarlarını özləri müəyyən edirlər. Onlara demək olmaz ki, siz bu reklamı verin, yaxud verməyin. Yəni bu məsələdə ciddi problemlər var. Biz, ən əsası, görürük ki, KİV-lərin özünün menecment problemi var? Bəlkə də reklamla bağlı menecment problemi var. Əsas məsələ bunun üzərində dayanılır ki, yəni reklam alacaq və verəcək işini bacaran menecmentlərin qıtlığı məsələsi var və əsas məsələ bunun üzərində köklənir. Mənə elə gəlir ki, bu reklam menecmentinin həm KİV-lər üçün, həm də ki, müəssisələrin özləri üçün olan bu məsələnin üzərinə gedilməli və reklam menecmentlərinin yetişdirilməsinə çalışmaq lazımdır. Çünki nə qədər ki, peşəkar reklam menecmentləri yoxdur, bu sahədə ciddi problem olacaq. Demək olmaz ki, Azərbaycanda reklam menecmenti yoxdur, amma bunlar hansısa digər sahələrin adamlarıdır, sadəcə, həvəskar formada yetişdirilirlər, amma təhsilli, peşəkar və işi bacaqran menecmentlərin yetişdirilməsinə ehtiyac var. Bundan başqa, ciddi bir problem görmürəm.”

***İnam HACIYEV***

TƏRS BAXIŞ

# Əli Kərimli niyə əl-ayağa düşüb?

*Yaxud AXCP sədrinin pessimizmə uğramasının səbəbləri*



***"Milli Şura"nın uğursuz və rüsvayçı mitinqlərinin ardınca xalqın ona dəstək vermədiyini görən AXCP sədri Əli Kərimli indi bütün gücünü sosial şəbəkədəki saxta profillərinə yönəldərək, bu vasitə ilə uğradığı acı məğlubiyyətini gizlətməyə çalışır. Barmaqlarına güc verən Ə.Kərimli az qala bütün hadisələrə, hətta məişət hadisələrinə də öz təbirincə siyasi don geyindirib, köhnə peşəsinə - klaviatura qəhrəmanlığına geri dönüb. Əlbəttə, onun bu üsulu da heç bir nəticə verməməklə yanaşı, dolayı yolla pessimizmə qapılmasını sübuta yetirmiş olur.***

**Xüsusilə 2018-ci ildə keçirilməsi gözlənilən prezident seçkiləri ərəfəsində onun siyasi ölümə məruz qalması reallığı artmağa başlayıb**

Yeri gəlmişkən, onu da qeyd edək ki, son vaxtlar AXCP sədrinin sosial şəbəkədəki saxta profilləri də durmadan azalmağa başlayıb. Daha dəqiq desək, əvvəllər öz uğursuz mitinqlərində uzağı, 1000 nəfərin iştirak etdiyi halda, həmin mitinqlərin şəkillərini daha çox insanın "bəyənməsi" halı ortadan qalxıb. Yəni hazırda Kərimlinin siyasi çərənləmələrini də uzaqbaşı uğursuz mitinqlərindəki say qədər insanlar "bəyənir", onların da, demək olar ki, hamısı saxta profillərdən ibarətdir. Beləliklə, artıq AXCP sədrinin saxta profilləri də istədiyi nəticələri vermir və bu səbəbdən, onun pessimistliyi artır. O, açıq-aşkar tibbi nöqteyi-nəzərindən yanaşarsaq, "payız depressiyası" dövrünü yaşayır və bu hal onda davamlı olaraq qalmağa başlayıb. Xüsusilə 2018-ci ildə keçirilməsi gözlənilən prezident seçkiləri ərəfəsində onun siyasi ölümə məruz qalması reallığı artmağa başlayıb. Ümumiyyətlə, hazırda siyasi mühit baxımından nəfəsi kəsilən Ə.Kərimliyə süni nəfəs verən yeganə tərəflər onun trollarıdır, yəni fanatizmə qapılmış zombi "cəbhəçilər". Lakin gec-tez onların da sıradan çıxacağı günün uzaqda olmadığını proqnozlaşdırmaq mümkündür. Belə ki, daha öncəki illərdə biz dəfələrlə AXCP sıralarından kütləvi qopmaların şahidi olmuşduq. Ə.Kərimlinin siyasi meydandakı "kütləsi" isə yox səviyyəsindədir. Yerdə qalanların bu reallığı anlayaraq, bu gün-sabah onu tərk edəcəkləri də an məsələsinə çevrilib.

**"Qış sindromu" "payız sindromu"ndan da betərdir...**

Ə.Kərimli rüsvayçılığa uğradıqca, onun aqressiyasının da artdığını görürük. Hakimiyyətə qarşı normal müxalifətçilik edə bilməyən, özünü yalnız xarici qüvvələrə satmaqla ayaqda saxlayan AXCP sədri, digər tərəfdən, müxalifət düşərgəsindəki başqa partiyalara da diş qıcıdır. Belə ki, seçkiqabağı müxalifət düşərgəsindəki bir sıra siyasi partiyaların, xüsusilə, əbədi və əzəli düşməni hesab edilən Müsavatın, eləcə də, AMİP-in, KXCP-nin, AXP-nin, VİP-in, "Ümid" partiyasının və s. partiyaların aktivliklərinin artacağını bəri başdan hesablayan AXCP sədri, necə deyərlər, başını itirmiş vəziyyətə düşüb.

Düzdür, hazırda adları çəkilən və çəkilməyən müxalifət partiyalarının da resursları, siyasi bazları sıfır həddindədir, amma buna baxmayaraq, Ə.Kərimli bundan kəskin təlaşlar keçirir. "Milli Şura"nın yox səviyyəsində olması da, bir tərəfdən, ona zərbə vurmaqdadır. Ona görə də, hazırda sosial şəbəkələrə geri dönüb saxta "bəyənmələr" əldə edərək, özünü başqa müxalifət partiya rəhbərlərindən üstün göstərməyə çalışan Kərimli unudub ki, o, bu "bəyənmələri!" itirdikdən sonra qarşıdan gələn soyuq qış aylarında tamamilə susmalı olacaq. Hətta mümkündür ki, AXCP sədri gedəcəyi uzun "qış yuxusu"ndan ayılmasın da. Çünki "qış sindromu" "payız sindromu"ndan da betərdir...

**Rövşən RƏSULOV**

# Müxalifətin fəaliyyəti şər və böhtan üzərində qurulub

<u>Tahir Kərimli:</u> *"İt hürər, karvan keçər"*



**Müsahibimiz Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimlidir**

***- Tahir bəy, bir-birinə rəqib olan dağıdıcı müxalif partiya finksionerləri arasında isti münasibətlərin yarandığı müşahidə olunur. Düşmənçiliyin dostluğa çevrilməsində xarici maraqlı qüvvələrin rolunun olduğunu demək olarmı?***

- Radikal müxalifət düşərgəsini təmsil edən şəxslər arasında isti münasibətlərin cəmiyyət üzərində qurula biləcəyi inandırıcı deyil. Yəni müxalifətin danışdığı reallığa əsaslanmır. Özlərini reklam etmək üçün bu variantа əl atıblar. Fakt budur ki, müxalif partiya rəhbərlərinin bir-birinə qarşı qəzəbi və nifrəti var. Onların arasında dərin qeyri-səmimi münasibətlər isti münasibətlərin yaranmasına imkan verə bilməz. Cəmiyyətdə uğur qazana bilməmələrinin də səbəbi bir-birinə düşmən gözü ilə baxmalarıdır.

***- "GAP" lideri Rəsul Quliyev Bakıya qayıdacağı və prezident seçkilərinə qatılacağını bəyan edib. Sizcə, onun Bakıya gəlib öz iddiasını reallaşdırmaq imkanı varmı?***

- R.Quliyevin Bakıya qayıdaraq müxalifətin "vahid namizədi" kimi, prezident seçkilərinə qatılması real deyil. Bu baxımdan da, onun Bakıya qayıdaraq namizədliyini irəli sürməsi illüziyalara əsaslanır və heç bir real əsasları olmayan sözlərdir. Sadəcə olaraq, arzudur və o, arzularını həyata keçirmək istəyirlər. Əgər R.Quliyev özü-özünü müxtəlif anormal təklifləri, açıqlamaları ilə yada salmasaydı, xalq belə bir varlığın olmasını tamamilə yaddan çıxmışdı. Belə olan halda, R.Quliyev hansı real şanslardan danışa bilər? Belə şansları mən görmürəm.

***- Ümumiyyətlə, İsa Qəmbər və Əli Kərimli kimi böyük iddialı müxalif partiya sədrləri başqa birinin namizəd olaraq ortaya çıxmasına imkan verə bilərlərmi?***

- Adları çəkilən həmin şəxslər, eləcə də, R.Quliyev ən yaxşı halda, müxalifətin yalnız bir hissəsinin namizədi ola bilər. Digər tərəfdən də, onsuz da radikal müxalifətin bu seçkilərdə cüzi uğur qazanmaq şansları belə yoxdur. Çünki onların xalqımız tərəfindən dəstəkləri yoxdur. Ümumiyyətlə, bu gün müxalifət ideologiya və vahid məqsəd birləşdirmir. Yəni bu qüvvələri hansısa maraqların birliyi tələb edəndə bir olurlar. Ona görə də, bu şəxslərin heç biri bir-birinə güzəştə gedən deyil.

***- Son vaxtlar qondarma hüquq müdafiəçiləri Xədicə İsmayıl və Leyla Yunus Azərbaycana qarşı şər və böhtan xarakterli ittihamlarını daha geniş şəkildə işlətməyə başlayıblar. Sizcə, bunun arxasında "Soros" fondunun və digər qərəzli təşkilatların dayandığını demək olarmı?***

- Artıq "SOROS" fondunun keçmiş və indiki fəaliyyəti ABŞ hüquq - mühafizə orqanları tərəfindən araşdırılır. Bu insanın açıqdan-açığa pozuculuq fəaliyyəti ortadadır. Corc Sorosun qazanclarının heç biri şəffaf deyil. Milyardlarla haram pul qazanan bir adamın halallıqdan, demokratiyadan danışması və bunu başqa ölkələrə ixrac etməyə çalışması gülüş doğurur. Onun yardımlarının hamsının əsasında haramlıq və nahaqlıq dayanıb. "SOROS" və onun kimi digər təşkilatlar bəzi ölkələrin içərisində müxalifəti maliyyələşdirərək, onlardan öz çirkin məqsədləri üçün istifadə etməyə çalışırlar. Bu baxımdan, Xədicə İsmayıl, Leyla Yunus kimilərinin Azərbaycana qarşı şər və böhtan xarakterli ittihamlar səsləndirmələrinin arxasında "SOROS" kimi qərəzli, məkrli təşkilatlar dayanır. Ancaq kimin nə deməsindən və danışmasından asılı olmayaraq, Azərbaycan öz demokratik dəyərlərinə sadiq olaraq qalacaq, insanların sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində islahatlarını davam etdirəcək. Onlara isə, hay-küy salmaq qalacaq. Qısası, "it hürər, karvan keçər".

**GÜLYANƏ**

## Putin Sarkisyana 20 il əvvəl oğurlanmış "İblis" hədiyyə edib



Rusiya lideri Vladimir Putinlə Ermənistan rəhbəri Serj Sarkisyan arasında Kremldə görüş baş tutub. Axar.az Kremlin saytına istinadla xəbər verir ki, Putin Ermənistan mədəniyyəti günləri çərçivəsində Sarkisyanın Moskva səfərindən razı qaldığını bildirib. Mediaya açıqlamasında Putin erməni həmkarı ilə ikitərəfli siyasi-iqtisadi əlaqələri, həmçinin təhlükəsizlik məsələlərini müzakirə etdiyini bildirib. Görüşdə Putin Sarkisyana rus rəssamı Mixail Vrubelin "Tamara qəlbli Mələk və İblis" ("Anqel s duşoy Tamarı i Demon") akvarelini hədiyyə edib. Akvarel 1995-ci ildə Ermənistandakı Rusiya İncəsənət Sərgisindən oğurlanıb və 20 il müddətində ondan heç bir xəbər olmayıb.

## Dariqa Nazarbayeva yeni vəzifəyə təyin olundu



Qazaxıstan Senatının deputatı Dariqa Nazarbayeva Xarici İşlər Nazirliyində İctimai Şuranın fəaliyyət məsələləri üzrə sədri vəzifəsinə seçilib. AZƏRTAC xəbər verir ki, Dariqa Nazarbayeva Qazaxıstanda diplomatik xidmətin inkişafına verdiyi töhfəyə görə yubiley medalı ilə təltif olunub. Qeyd edək ki, 2016-cı ilin sentyabrında Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin fərmanı ilə Dariqa Nazarbayeva ölkə Senatının (Yuxarı Palata) deputatı təyin edilmişdi.

## Kabildə partlayış nəticəsində ölənlərin sayı 18 nəfərə yüksəlib



Noyabrın 16-da Əfqanıstanın paytaxtı Kabil şəhərində yerli məmurların toplaşdığı restoranın yaxınlığında partlayış törədilib. AZƏRTAC xəbər verir ki, Tolo News telekanalının yaydığı məlumata görə, insident nəticəsində ölənlərin sayı 18 nəfərə çatıb, 10 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Həyatını itirənlər arasında 8 polis əməkdaşının da olduğu bildirilir. Xatırladaq ki, 2014-cü ildə Amerikanın hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən yaraqlılar böyük şəhərlər istiqamətində də hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD qruplaşmasının da aktivliyi artıb.

## Ali məktəb prorektorlarının attestasiyası keçiriləcək



Təhsil Nazirliyində 2018-ci ildə ali təhsil müəssisələrinin prorektorlarının attestasiyasının keçirilməsi ilə bağlı qərar qəbul olunub. SİA-nın məlumatına görə, bununla bağlı qərar Təhsil Nazirliyində keçirilən kollegiya iclasında verilib. İclasda həm də Rektorlar Şurasının Əsasnaməsi müzakirə olunduqdan sonra təsdiq edilib.

# Müstəqillik illərində Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinə qayğısı

***Ulu Önər Heydər Əliyev müstəqillik illərində Azərbaycan dilini beynəlxalq dil səviyyəsinə yüksəltdi və inkişaf etdirdi.***

Professor Nizami Xuduyev "Heydər Əliyevin dil siyasətinin uğurları" adlı məqaləsində Ulu Öndərin Azərbaycan dilinə diqqət və qayğısını geniş və hərtərəfli işıqlandıraraq yazır: "Heydər Əliyevin doğma Azərbaycan dili uğrunda on illər boyu necə şərəflə, cəsarətlə, elmi-nəzəri əsaslara söykənən prinsipiallıqla mübarizə aparması, obyektiv, real nəticələrə nail olması dünyada yaşayan bütün azərbaycanlılara, 50 milyonluq Azərbaycan xalqına ən gözəl nümunədir. Onun dil siyasətinin uğurları bütün incə, "görünməz" məqamları ilə öyrənilməli, ciddi elmi-analitik təhlil, tədqiq yolu ilə xalqımıza, xüsusilə, gənc nəslə çatdırılmalıdır.

Yeni Azərbaycan Partiyasının yaradıcısı və lideri, Dahi Öndərimiz Heydər Əliyevin öz doğma dilinə - Azərbaycan dilinə on illər boyu davam edən misilsiz qayğı və diqqəti tarixdə az-az hallarda təsadüf olunan nadir mədəniyyət faktı və fenomenal hadisədir.

Heydər Əliyevin bitkin elmi-nəzəri əsaslara, praktik tətbiqə əsaslanan Azərbaycan dili siyasəti böyük uğurlar qazanıb desək, yanılmarıq. Vaxtı ilə öz doğma dilində danışa bilməyən, yaxud danışmaq istəməyən bir sıra yüksək vəzifəli dövlət məmurları Heydər Əliyevin ciddi tələbkarlığı nəticəsində indi Azərbaycan dilində sərbəst danışırlar; ümumiyyətlə, dövlət dilimizə kampaniyaçılıqdan uzaq olan daimi diqqət və qayğı cəmiyyətimizin milli dil mühitinin dövlət dili mühitinin əsaslı şəkildə genişlənməsinə və əsl ümumdövlət xarakteri almasına gətirib çıxarmışdır.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərmanı Heydər Əliyevin on illər boyu davam edən uğurlu dil siyasətini fundamental yekun sənədi adlandırmaq olar. Dilimizin ən qədim tarixinə obyektiv elmi-tarixi qiymət verən, Azərbaycan dilinin türk köklü müstəqil dil olmasını bir daha təsdiqləyən, onun əsas təkamül mərhələlərini, inkişaf yollarını dahiyanə bir müdrikliklə, elmi-nəzəri əsaslarla izləyərək son söz deyən, rəsmi dövlət münasibəti bildirən bu fundamental tarixi sənəd Heydər Əliyevin dil siyasətinin uğurlar miqyasını daha da genişləndirdi. Dil haqqında XIII əsrin Məhəmməd bəy Qaramanoğlu, XVI yüzilliyin Şah İsmayıl Xətai fərmanlarını yada salan, lakin o tarixi göstərişlərdən daha bütöv, daha bitkin olan Heydər Əliyev Fərmanı inanıram ki, on illər, yüz illər boyu Azərbaycan dili, Azərbaycan milli mənəviyyatı naminə iş görəcək, uğurlar qazanacaq... Müstəqilliyini təzəcə qazanmış Azərbaycan 1992-ci ildə faciəli günlər yaşayır, sosial-siyasi burulğanlar, dərəbəylik və anarxiya məngənəsində sıxılırdı. Cəmiyyətin həqiqi milli liderə, əsl rəhbərə və müdrik yolgöstərənə ehtiyacı vardı. Azərbaycanın 91 nəfər görkəmli ziyalısı, alimi, sənətkarı bir araya gələrək dünya miqyaslı liderə - xalqın yeganə ümidi, pənahı, xilaskarı Heydər Əliyevə üz tutduq. Bu, təkcə 91 nəfər ziyalının yox, əslində, bütün xalqın dar ayaqda ümidi, tələbi, xahişi və təkidli çağırışı idi".

Ulu Öndər Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində ölkədə Azərbaycan dilinin inkişaf etdirilməsi üçün səylərini davam etdirdiyini qeyd edərək deyirdi: "Bilirsiniz, hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub-saxlanmasında az da olsa, çox da olsa, öz xidmətini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatçılarımız və şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın, bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər böyük söz ehtiyatına malikdir.

Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Ancaq eyni zamanda, arzu edirik ki, hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı o ölkənin dilini də mənimsəsin, o ölkənin adət-ənənələrindən də istifadə etsin, o ölkənin şəraitinə uyğunlaşsın. Amma Azərbaycan dilini yaşatsın".

Akademik Ağamusa Axundov "Heydər Əliyevin Azərbaycan dilinə qayğısı qəhrəmanlığa bərabər xidmət idi" adlı məqaləsində Ulu Öndər Heydər Əliyevin respublikamızda dövlət dilinin adının Azərbaycan dili olması uğrunda apardığı mübarizədən bəhs edərək yazır: "Daha başqa bir fakt. Yenə həmin müşavirədə respublika Prezidenti deyir: "Azərbaycan Respublikasının 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" yazılıbdır. 1992-ci ilin dekabr ayında isə Milli Məclisin 26 üzvünün səs verməsi ilə qanun qəbul olunubdur ki, "Azərbaycanın dövlət dili türk dilidir". Belə bir qanun qəbul edərkən 1978-ci ildə qəbul olunmuş konstitusiya qanunu ləğv olunmayıbdır. Şübhəsiz ki, bu qanun onu ləğv edə bilməzdi. O qanun da qalıbdır. Yəni konstitusiyada qalıb. Bu qanun da qəbul olunub. Ona görə də qanunvericilik və qanunçuluq nöqteyi-nəzərindən burada böyük qüsurlara yol veribdir. Bu, məsələnin bir tərəfi.

İkinci tərəfi ondan ibarətdir ki, Milli Məclis tərəfindən qeyri-qanuni qəbul olunmuş bu qanun respublikamızda birmənalı qəbul edilməyib. Əhalinin bir hissəsi, demək olar ki, əksəriyyəti, ümumiyyətlə, bu qanunun qəbul edilməsindən narazı olubdur, ola bilər, bir hissəsi bəyənibdir. Ancaq qanunvericilik, ümumiyyətlə, siyasət sahəsində təcrübəsi olan adamlar bu qanun qeyri-qanuni qəbul edildiyinə görə bundan narahat olublar. Bax, belə bir vəziyyət yaranıb".

Bütün bunlar iclasın gedişində müəyyənləşdirilib üzə çıxarılır, müzakirəyə verilir və müzakirə olunurdu. Çıxış edənlərə, ürək sözlərini deyənlərə hər cür şərait yaradılmışdı. Müzakirələrin məntiqi nəticəsi dövlət dilimizin adının Milli Məclisin 1992-ci il qərarında göstərilənin əksinə getdi. Ölkə rəhbəri dedi: "Birincisi, həm 31-də olan çıxışlardan, həm bugünkü çıxışlardan mən belə başa düşdüm ki, 1992-ci ilin dekabrında Milli Məclis tərəfindən qəbul olunmuş qanun bəyənilmir, çünki həm o gün, həm də bu gün çıxış edənlərin tam əksəriyyəti Azərbaycan dili əvəzinə türk dilinin dövlət dili kimi qəbul olunmasını qəbul etmir. Belədir də, mən belə başa düşürəm. Hətta bizim Konstitusiya komissiyasında bu məsələnin bu cür müzakirəsinə səbəb olanlar - Bəxtiyar Vahabzadə, Anar, Elçin Əfəndiyev, onlar da təklifi qaldırarkən üçü də demədilər ki, Azərbaycan dili əvəzinə Konstitusiyada dövlət dili "türk dili" yazılsın".

Məsələlərin hərtərəfli müzakirələrindən sonra respublika Prezidenti, Konstitusiya Komissiyasının Sədri Heydər Əliyev Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 5 noyabr 1995-ci ildə keçirilən iclasında müzakirələrin məntiqi nəticəsi kimi dövlət dilimizin adı barədə öz qəti fikrini bildirdi: "Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda, bu gün deməliyik və haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir noqteyi-nəzərdən düzgün deyil - həm tarixi nöqteyi-nəzərdən, həm fəlsəfi nöqteyi-nəzərdən, həm Azərbaycanın dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən". Əbədiyaşar Prezidentimizin dövlət dilimizin adı sahəsində gördüyü işlər ölkəmizin, xalqımızın, millətimizin və dövlətimizin adına uyğun olaraq, dövlət dilimizin adının da Azərbaycan dili kimi qalması ilə nəticələndi.

Dilimizin böyük hamisi Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı Azərbaycan dilinin dövlət dili statusunun təmin olunmasında ciddi dönüş yaratdı. Fərman Azərbaycan Respublikasının dil quruculuğu sahəsində qarşısında duran vəzifələrə həsr edilmişdi. Bu tarixi sənəddə elə belə də yazılmışdı: "Azərbaycan Respublikasının onillik inkişaf yolunun təcrübəsi göstərir ki, digər sahələrdə olduğu kimi, ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də həlli görüləsi işlər çoxdur". Fərmanda həmin işlər və onların yerinə yetirilməsi ilə əlaqədar konkret vəzifələr göstərilmişdi. Fərmanın tarixi əhəmiyyəti bir də onda idi ki, ölkə rəhbərinin dövlət dilinin inkişafına nəzarətinin daimi olduğunu göstərir və beləliklə, dövlət və hökumət idarələrinin, nazirliklərin və eləcə də elm və təhsil müəssisələrinin bu işlərin yerinə yetirilməsində məsuliyyətini artırırdı.

Fərmanın imzalanmasından keçən dövr ərzində görülən işlər göz önündədir. Orta məktəblər üçün Azərbaycan dilinin tədrisi üzrə yeni proqram hazırlanıb. Yeni dərsliklər yazılıb və nəşr olunub. Televiziya kanallarında Azərbaycan dilində səsləndirilən filmlərin sayı artıb. Latın qrafikası əsasındakı Azərbaycan əlifbasının tətbiqi 2001-ci il avqustun 1-dən tamamilə həyata keçirilib. Həmin tarix Azərbaycan dili günü kimi hər il təntənə ilə qeyd edilir. Azərbaycan Respublikasının Terminologiya Komissiyası yaradılıb və səmərəli fəaliyyət göstərir. Elm müəssisələrində nitq mədəniyyəti üzrə elmi əsərlər yazılıb və nəşriyyatlara təqdim edilib. Fərmanın qarşıya qoyduğu digər vəzifələr də yerinə yetirilməkdədir.

Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Heydər Əliyev xüsusi Fərman imzaladı. Bu Fərmanla qüvvəyə minən həmin qanun Azərbaycan dilinin dövlət dili kimi inkişafında yeni bir mərhələ oldu. Dövlət dili haqqında qanun xalqımızın unudulmaz rəhbərinin ana dili sahəsindəki gördüyü nəhəng işlərin təntənəsi sayıla bilər. Dövlət dilimiz bir ildir ki, həmin qanunun yaratdığı şəraitdə gunbəgün inkişaf edir. Qanun isə öz işləkliyini daha da artırır.

Azərbaycan dilinin və onun dövlət dili kimi inkişafının gələcəyi də Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin müstəqilliyimizin dönməzliyini təmin etməsi ana dilimizin inkişafı üçün də etibarlı qarantdır".

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərmanda deyilir: "Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub-möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir və böyük gələcəyə malikdir. Ona görə də, xalqımıza ulu babalardan miras qalan bunun qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalıdır. Daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur".

Bu vətəndaşlıq borcunun necə, hansı miqyasda həyata keçirilməsinin ən gözəl nümunəsini xalqımızın müdrik oğlu Heydər Əliyev göstəribdir. 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə əksəriyyət səslə ölkə Prezidenti seçilən Cənab İlham Əliyevin öz fəaliyyətində əbədiyaşar Prezident Heydər Əliyevin siyasətini davam etdirəcəyi barədə verdiyi bəyanatlar Azərbaycanın dövlət dilinin inkişafının da dönməz və əbədi olduğunun aydın göstərir.

Bu baxımdan, Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin ən gözəl nümunələrini müasir dövrdə təbliğ etmək və gələcək nəsillərə çatdırmaq məqsədilə latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı böyük diqqətlə hazırlanmışdır. Bu Sərəncamdan irəli gələn vəzifələrin tam həcmdə həyata keçirilməsi bütün aidiyyəti qurumların müqəddəs borcu olmalıdır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

## Leonardo da Vinçinin "Dünyanın xilaskarı" əsəri 400 milyon dollara satılıb

Leonardo da Vinçinin "Dünyanın xilaskarı" rəsmi "Christie's" satış evinin Nyu-Yorkda keçirilən hərracında 400 milyon dollara satılıb. Lotun vergilərlə birgə yekun qiyməti 450 milyon dollardan çox olacaq ki, bu da indiyədək hərraclarda satılan sənət əsərləri üçün rekord məbləğdir.

AZƏRTAC BBC telekanalına istinadla xəbər verir ki, Leonado da Vinçinin məlum əsərlərindən şəxsi kolleksiyada olan yeganə rəsmi nəinki müharibə sonrası və müasir incəsənət hərracının, həm də XXI əsrin əsas lotu olub. Hərraca 100 milyon dollara çıxarılan rəsm uğrunda eyni vaxtda beş alıcı mübarizəyə başlayıb, lakin qiymət 200 milyon dolları keçdikdən sonra onlardan üçü fikrindən daşınıb. Nəticədə rəsm əsəri 20 dəqiqəlik ticarətdən sonra 400 milyon dollar təklif edən alıcıya qismət olub. Əsərin yekun qiyməti isə 450 312 500 dollar (vergilər və hərrac yığımları ilə birgə) təşkil edir. Qeyd edək ki, bu məbləğ 2015-ci ildə "Christie's" satış evinin Nyu-Yorkda keçirilən hərracında qeydə alınan rekorddan iki dəfə yüksəkdir. Qətərin Baş naziri Hamed bin Casem Əl Taninin təxminən 200 milyon dollara satın aldığı "Əlcəzairli qadınlar" (Pablo Pikasso) rəsmi son il yarım ərzində ən bahalı əsər sayılırdı. "Dünyanın xilaskarı" rəsm əsərinin yeni sahibinin adı isə açıqlanmır.

Daha bir neçə maraqlı fakt. Euronews telekanalının məlumatına görə, əsərin son sahibi - rusiyalı oliqarx Dmitri Rıbolovlyev onu böyük art-dilerlerin birindən təxminən 128 milyon dollara almışdı. Beləliklə, o, bir hərracda 300 milyon dollar irəli düşüb. Dünya bu əsərdən ilk dəfə yarım əsr əvvəl xəbər tutmuşdu. O vaxt "Dünyanın xilaskarı" da Vinçi məktəbinə aid rəsm sayılırdı və ona cəmi 45 funtsterlinq hərrac qiyməti qoyulmuşdu. Əsərin məşhur rəssamın fırçasına məxsus olduğu isə 6 il əvvəl dəqiqləşib.

## Həm müalicəvidir, həm də dietik

Balqabaq Şimali Amerika tərəvəzi hesab olunur. Mühacirlər qitəyə gəlməzdən xeyli əvvələ qədər balqabaq hindi masasında əsas məhsullardan biri idi. Onlar yetişdirdikləri balqabaq dilimlərini qış uzunu tonqallarda qızardıb yeyirdilər. AZƏRTAC xəbər verir ki, arxeoloji qazıntılar nəticəsində balqabağın 5 min ildən çox yaşı olduğu aşkar edilib. Amerikada daha əvvəllərdən becərilən həmin tərəvəzi Avropaya İlk dəfə ispan dəniz səyyahları gətirib. Qədim Roma və Yunanıstan əhalisi onun qurudulmuşundan su və şərab qabı kimi istifadə edirdilər. Qulluğa az ehtiyacı olduğuna və dərilөndən sonra uzun müddət qaldığına görə əhali onu bəyənərək becərməyə başlayıb. Balqabaq təkcə zahiri görünüşü ilə deyil, bostan bitkisi kimi də qarpızla yemişin arasında yer tutur. İri yarpaqlı və sarmaşıq kimi uzanan balqabaq tağını qarpız tağından ayırmaq heç də asan deyil. Balqabaq yetişməmişdən qabaq yastı formalı yemişə oxşayır. Aran bölgələrində yetişmiş balqabağı təndirin isti külünə basdırır, müəyyən vaxtdan sonra onu küldən çıxararaq dilimləyib yeyirlər. Balqabağa bəzi yerlərdə, o cümlədən Qarabağ bölgəsində boranı da deyirlər. Onun tərkibindəki karotin yerkökündən 5, mal ciyərindən isə 3 dəfə çoxdur. Ona görə də oftalmoloqlar görmə qabiliyyəti zəif olanlara balqabaq şirəsi içməyi məsləhət görürlər. Bundan başqa onun tərkibində diyetoloqların çox sevdiyi T vitamini tapılıb. Həmin maddə ağır yeməklərin həzm olmasını yaxşılaşdırır və piylənmənin qarşısını alır. Ona görə də balqabağı yağlı mal və qoyun ətindən hazırlanan xörəklərin yanında süfrəyə vermək lazımdır.

Tərkibində dəmir olan tərəvəzlər arasında da balqabaq liderlik edir və çoxlu balqabaq yeyənlərdə qanazlığına təsadüf edilmir. Kişilərdə cinsi qabiliyyəti yüksəltmək üçün də yaxşı vasitə sayılır, eyni məqsədlə onun toxumlarından da istifadə etmək olar. Balqabağın təmizlənmiş toxumlarını səhər acqarına çırtlamaq qurd əleyhinə ən yaxşı vasitə hesab olunur.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin III kurs tələbəsi Quliyeva Nuray Ehtibar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Ramiq Muxtar və ailəsi xalq artisti Ağadadaş Ağayevin anası **Səkinə xanımın** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər

***Allah rəhmət eləsin!***

## "Rusiya-2018"in bütün iştirakçıları müəyyənləşib

2018-ci ildə Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatının final mərhələsinə vəsiqə qazanan sonuncu - 32-ci ölkənin adı məlum olub. AZƏRTAC xarici KİV-lərə istinadən xəbər verir ki, mundiala vəsiqə qazanan sonuncu komanda doğma meydanda Yeni Zelandiyaya 2:0 hesabı ilə qalib gələn Peru millisi olub.

Artıq dünya çempionatının iştirakçıları səbətlərə bölünüblər. Belə ki, "A" səbətində Rusiya, Almaniya, Braziliya, Portuqaliya, Argentina, Belçika, Polşa, Fransa, "B" səbətində İspaniya, Peru, İsveçrə, İngiltərə, Kolumbiya, Xorvatiya, Meksika, Uruqvay, "C" səbətində Danimarka, İsveç, İslandiya, Kosta-Rika, Tunis, Misir, Seneqal, İran, "D" səbətində Serbiya, Nigeriya, Yaponiya, Mərakeş, Panama, Koreya Respublikası, Səudiyyə Ərəbistanı və Avstraliya yığmaları yer alıblar. Mundialın qrup mərhələsinin püşkatma mərasimi dekabrın 1-də Moskvada keçiriləcək.



## "Barselona" Antuan Qrizmann ilə razılığa gəlib!

"Barselona" futbol klubu "Atletiko Madrid"in hücumçusu Antuan Qrizmann ilə razılığa gəlib. Bu barədə "Le10Sport" saytı xəbər yayıb. Məlumatda deyilir ki, Kataloniya təmsilçisinin 26 yaşlı futbolçu ilə danışıqları müsbət yekunlaşıb. Qeyd edək ki, bir müddət əvvəl "Barselona" cari mövsümün sonunda fransalı futbolçunu heyətinə qatmaq üçün 100 milyon avro ödəməyə hazır olduğu bildirilirdi.

## "Neftçi" futbolçusunu cəzalandırıb

"Neftçi" klubunun futbolçusu Elnur Cəfərov baş məşqçi Tərlan Əhmədovun təqdimatına əsasən əvəzedici komandaya göndərilib. SİA kluba istinadla xəbər verir ki, futbolçu, həmçinin komandanın kodeksinə uyğun olaraq cərimə olunub. Buna səbəb Elnur Cəfərovun U-21 milli komandasının heyətindəki çıxışı və sosial şəbəkələrdəki hərəkəti ilə milli komandanın və klubun ictimai nüfuzuna xələl gətirməsidir.

## "Korintians" yeddiqat Braziliya çempionu olub

"Korintians" futbol klubu Braziliya çempionu olub. Braziliya çempionatının 35-ci turunda "Fluminense" komandasına 3:1 hesabı ilə qalib gələn San-Paulu təmsilçisi sona üç tur qalmış çempionluğunu rəsmiləşdirib. "Korintians" ən yaxın izləyicisi "Qremio"nu 10 xal qabaqlayır. "Korintians" tarixində yeddinci, son üç ildə isə ikinci dəfə çempionluq yaşayıb. Çempionluğun sayına görə, San-Paulu klubu üçüncüdür. Ən çox Braziliya çempionluğu yaşayan isə "Palmeyras" klubudur. Onun aktivində 9 çempionluq var.

## İtaliya Futbol Federasiyası Karlo Ançelotti ilə danışıqlara başlayıb

İtaliya Futbol Federasiyası millinin yeni baş məşqçisi vəzifəsi üçün Karlo Ançelotti ilə danışıqlara başlayıb. Qol.az-ın "Gazzetta dello Sport"a istinadən yaydığı xəbərə görə, təcrübəli mütəxəssisin yığmada işləməyə razı olduğu bildirilib. Ancaq hələlik tərəflər arasında razılıq əldə olunmayıb. Qeyd edək ki, İFF yığmanın DÇ-2018-in final mərhələsinə vəsiqə qazanmamasından sonra Campyero Ventura ilə yolları ayırıb. Xatırladaq ki, K.Ançelotti son olaraq "Bavariya"nı çalışdırıb. O, bu ilin sentyabrında istefaya göndərilib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500